Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

8 MAY 2019-cu il

№ 82 (3980)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# RUSİYANIN CƏNUBİ QAFQAZ DƏMİR YOLU STRATEGİYASINDA AZƏRBAYCAN DƏMİR YOLLARI ERMƏNİSTANI KÖLGƏDƏ QOYMAĞA BAŞLAYIB

səh. 3



səh. 5

## Paşinyan Azərbaycan ərazilərində 3 qanunsuz tədbirdə iştiraka hazırlaşır - beynəlxalq sülh təminatçıları niyə susur...

Prezidentin Qobustanda tibbi personala ən ümdə tapşırığı - "Əsas məsələ ondadır ki, xəstələrə gözəl xidmət və qayğı göstərilməlidir" səh. 2

"Onların ordusu o qədər güclüdür ki, bir döyüş əməliyyatı ilə Ermənistanı yerlə yeksan edə bilər" səh. 9

"Keşikçidağ" kompleksinə görə Gürcüstanı Azərbaycana qarşı qızışdıranlar var... səh. 7

Qardaş Türkiyədə İstanbul seçki gərginliyi yenidən başladı, Avropa komissarları hesabat istəyir səh. 10

Cahangir Hacıyev kosmonavt qadına 12 milyon dolları necə köçürüb? səh. 11

Ermənistan əhalisinin 8 min nəfər azaldığı rəsmi təsdiqlənib səh. 10

"Sabina Parfüm" hədiyyəli kremlərin yararsızlığı ittihamlarına necə cavab verdi... səh. 12

Uzunqulaq idxalı xeyli azalıb, uzunqulağa valyuta xərcləməyə dəyərmi - idxalın sıfır həddə endirilməsi daha məqbul sayılır səh. 15



### Azərbaycanın üç yaxın qonşusunun ABŞ-la münasibəti sürətlə gərginləşir, ölkəmiz hələlik seçim qarşısında deyil...

səh. 8

## Paşinyan yeni dövlət qurumları yaratmaqda davam edir

səh. 8




### Bankların böyük qanunsuzluğu - saytlarda fəaliyyət göstəriciləri yarımçıq verilir, rəqəm gizlətməyin məqsədləri...

səh. 12

### Turan ölkələrində vahid türkdilli yeni televiziya, ya...

səh. 4



### Moskvada Azərbaycan səfirliyində yanğın feykini kim(lər) nə məqsədlə yaydı...

səh. 4



### Gürcüstan - Azərbaycan sərhədində təşkil edilmiş məbəd aksiyaları hardan idarə olunur...

səh. 5



### Sabiq bankir Cahangir Hacıyevin "Cargill əməliyyatları" adı ilə xaricə pul axıtdığı başqa bir əməli də açılır

səh. 13



### Ramazanın gəlişi ilə xurma 20-27 manata qalxdı...

səh. 14



# Prezidentin Qobustanda tibbi personala ən ümdə tapşırığı - "Əsas məsələ ondadır ki, xəstələrə gözəl xidmət və qayğı göstərilməlidir"

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 7-də Qobustan Rayon Mərkəzi Xəstəxanasının açılışında iştirak ediblər.**

Xəstəxananın kollektivini təbrik edən Prezident İlham Əliyev deyib:"…Ən qabaqcıl ölkələrdəki xəstəxanalarda hansı müasir avadanlıq varsa, burada da var. Əsas məsələ ondadır ki, xəstələrə burada çox gözəl xidmət və qayğı göstərilməlidir. Əminəm ki, siz bunu təmin edəcəksiniz". "Bu il altı milyona yaxın insan dövlət xətti ilə müayinədən keçəcək. Biz bu proqramı bir neçə ildir ki, uğurla icra edirik. Hesab edirəm ki, dünya miqyasında bu, artıq özünü tam doğrultmuş bir təcrübədir".

Prezident və birinci xanım mayın 7-də "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Qobustan filialının açılışında da iştirak ediblər. Müəssisənin açılışı münasibətilə xalçaçıları təbrik edən Prezident İlham Əliyev deyib: "İlk növbədə, sizi peşə bayramınız münasibətilə təbrik edirəm. Çox şadam ki, bu peşə bayramı günlərində gözəl fabrikin açılışını qeyd edirik. "Azərxalça" Açıq Səhmdar Cəmiyyəti üç il bundan əvvəl mənim Sərəncamımla yaradılmışdır. Qarşıya vəzifə qoyulmuşdur ki, ölkəmizin bütün bölgələrində müasir xalça fabrikləri yaradılsın və bu istiqamətdə çox böyük işlər görülüb. Artıq 20 fabrik hazırdır. Ümumiyyətlə, 31 xalça fabrikinin yaradılması nəzərdə tutulur. Hesab edirəm ki, növbəti bir-iki il ərzində qalan fabriklər də istifadəyə veriləcək və beləliklə, Azərbaycan öz qədim sənətini yaşatmaq istiqamətində çox önəmli addım atmış olacaq.

Qobustan fabrikində 150 iş yeri yaradılıb. İşçilərin də mütləq əksəriyyəti qadınlardır. Bu, qadınlar üçün dövlət tərəfindən atılan çox böyük addımdır. Çünki qadınların iş yerləri ilə təmin olunması prosesi xüsusi əhəmiyyət daşıyır…

Azərbaycan öz xalçalarını dünya miqyasında daha geniş şəkildə təqdim edəcək. Bildiyiniz kimi, bizim xalçalarımız dünyanın aparıcı muzeylərində nümayiş etdirilir. Xalçaçılıq bizim qədim sənətimizdir və əsrlər boyu biz bu sənəti yaşadırıq".



Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Qobustan regional yun və boyaq bitkilərinin tədarükü məntəqəsinin fəaliyyəti ilə də tanış olublar.

Mayın 7-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qobustan-Poladlı avtomobil yolunun açılışında da iştirak ediblər.

**Bildirilib ki, bu layihənin icrası sürücülərin təhlükəsizliyinin təmin edilməsi ilə yanaşı, bölgədə iqtisadiyyatın və kənd təsərrüfatının inkişafında da mühüm rol oynayacaq.**

## Binəli Yıldırım İstanbul bələdiyyəsinə ilk seçki məğlubiyyətindən "yorulmayıb"...

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İstanbul bələdiyyəsinə müvəqqəti başçı təyin edib.**

"Trend"in məlumatına görə, bələdiyyə sədri vəzifəsini Əli Yerlikaya icra edəcək. Həmçinin qeyd edilir ki, R.T.Ərdoğan Binəli Yıldırımın yenidən keçiriləcək İstanbul bələdiyyə seçkilərinə namizədliyini irəli sürüb. Qeyd edək ki, martın 31-də Türkiyədə keçirilmiş bələdiyyə seçkiləri zamanı İstanbul bələdiyyə sədri vəzifəsinə müxalif Cümhuriyyət Xalq Partiyasından namizəd olan Əkrəm İmamoğlu 4,169 milyon, hakim Ədalət və İnkişaf Partiyasından namizədliyi irəli sürülmüş Binəli Yıldırım isə 4,156 milyon səs qazanıb.

DEMOKRATİK, MÜSTƏQİL QƏZET
BAKI XƏBƏR
www.baki-xeber.com
Həftədə 5 dəfə çıxır
Qəzet 2003-cü ildən nəşr olunur

**«Bakı-Xəbər» qəzetini hər səhər evinizdə və iş yerinizdə əldə etməyin ən asan yolu -**

**Abunə!**

Abunə istəyinizdən asılı olaraq 1-12 aylıq müddətə yazılır.

1 aylıq abunə qiyməti - **8 AZN**
3 aylıq abunə qiyməti - **24 AZN**

**Abunə yazılışı aşağıdakı mətbuat yayım şirkətləri vasitəsilə həyata keçirilir:**

**QAYA - telefonlar:** (012) 564-63-45; 564-48-96
**Azərmətbuatyayım:** (012) 441-19-91; 440-27-85; 440-39-83
**Press İnform:** (012) 498-00-80; (055) 315-60-02

## Əli Həsənov türkdilli dövlətlərin informativ inteqrasiyasının daha zəruri olduğunu faktlarla belə əsaslandırdı...

**Dağlıq Qarabağ münaqişəsi regionun və dünyanın ən çətin həll olunan münaqişələrindən biridir. Burada işğalçı və işğala məruz qalan tərəf var, hər şey aydındır.**

Bizim türkdilli dövlətlərin informasiya dəstəyinə ehtiyacımız var. Çünki zaman-zaman ermənilər öz təbliğatlarını həyata keçiriblər.

"Trend" xəbər verir ki, bunu Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi - şöbə müdiri Əli Həsənov jurnalistlərə açıqlamasında deyib.

Ə.Həsənov bildirib ki, Azərbaycanın türkdilli dövlətlərin informasiya dəstəyinə ehtiyacı var: "Türk Şurasına üzv dövlətlər arasında informasiya sahəsində inteqrasiyanın gücləndirilməsi



labüddür. Misal üçün, 2016-cı ilin aprel döyüşləri zamanı Azərbaycanın informasiya dəstəyinə ehtiyacı var idi. Ermənilərin təxribatları, onların bölgədə həyata keçirdiyi işğalçılıq siyasətləri, Azərbaycanın mədəni və dini obyektlərini dağıtmasının regionda və dünyada nümayiş etdirilməsinə ehtiyac var idi. Ona görə də hesab edirəm ki, Türk Şurasına üzv dövlətlər belə məqamlarda bir-birinə dəstək verməlidir".

PA-nın şöbə müdiri əlavə edib ki, bu gün dünyada İslam dininə qarşı çirkin kampaniya aparılır: "İslam dövlətləri, müsəlman xalqları terrorla eyniləşdirilir. Onların mədəniyyətləri və dəyərləri inkar olunur".

## Xətai rayonunda ağacların kəsilməsi ilə bağlı Baş Prokurorluğa müraciət olundu

**Bakıda ağac kəsintisi ilə bağlı toplanmış sənədlər Baş Prokurorluğa göndərilib.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətindən "Trend"ə verilən məlumata görə, Xətai rayonu, Məhəmməd Hadi küçəsi 93/99 ünvanında ağacların icazəsiz köçürülməsi və kəsilməsi faktı cinayət tərkibi yaratdığından torpaq mülkiyyətçisi Həzrət Temirov barəsində toplanmış araşdırma materialları



qanunamüvafiq tədbirlərin görülməsi üçün Azərbaycan Respublikası Baş Prokurorluğuna göndərilib.

Xatırladaq ki, 5 may 2019-cu il tarixində Ekologiya və Təbii Sərvətlər Nazirliyinə Xətai rayonu, M.Hadi küçəsi, 93/99 ünvanında ağacların kəsilməsi ilə bağlı daxil olan şikayət Nazirliyin əməkdaşları tərəfindən araşdırılarkən yaşıllıq sahəsində torpaq mülkiyyətçisi tərəfindən 25 meyvə ağacının kəsildiyi, 2 zeytun ağacının və 96 nar kolunun köçürüldüyü müəyyən edilib.

# Əli Həsənovdan türk dövlətlərini daha sıx inteqrasiyaya gətirən ideya...

**Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) informasiya və media üzrə məsul nazirlərinin və yüksək vəzifəli rəsmilərinin II toplantısı keçirilib. "Trend"in məlumatına görə, Türk Şurasının baş katibi Bağdad Amreyev informasiya və media üzrə məsul nazirlərin və yüksək vəzifəli rəsmilərin ötən toplantısından sonra görülən işlə barədə məlumat verib.**



*"Təklif edirəm ki, Azərbaycanın Dövlət və İctimai Televiziyası Türk Şurasına üzv dövlətlərdə yayımlansın"*

O, işçi qrupunun VII toplantısında müzakirə edilən məsələlərdən danışıb. Baş katib deyib ki, VII toplantıda şuraya üzv dövlətlər üçün önəmli məsələlər müzakirə olunub.

Toplantıda çıxış edən Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi - şöbə müdiri Əli Həsənov deyib ki, 2012-ci ildə türkdilli dövlət başçılarının zirvə görüşündə yaradılan Şura üzv dövlətlərinin maraqlarını ifadə edərək müxtəlif aspektlər üzrə fəaliyyət göstərir: "Müzakirə olunan əsas məsələlərdən biri dövlətlərimiz arasında mətbuat sahəsində əməkdaşlığın inkişaf etdirilməsindən ibarətdir. Bu əməkdaşlıq Avrasiya və dünya məkanında xalqlarımızın maraqlarını ifadə edilməsinə xidmət etməlidir".

Şöbə müdiri qeyd edib ki, Şuraya üzv olan ölkələrin hər biri bərabərhüquqludur: "Əməkdaşlıq mühiti Şuranın əldə etdiyi ən böyük nəticədir. Əməkdaşlıq istiqamətində bütün məsələlərə dəstək verməyə hazırıq. Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarında infrastrukturu dağıdıb. Biz istərdik ki, türk ölkələrinin mətbuatında bununla bağlı məlumatlar, informasiyalar getsin. Əgər Turkiyə regionda hər hansı problemlə rastlasirsa, biz onlara informasiya dəstəyi verməliyik. Türk Şurasına daxil olan ölkələr qarşılıqlı şəkildə bir-birinə dəstək verməlidir".

Ə.Həsənov vurğulayıb ki, televiziya sahəsində qarşılıqlı əlaqələr qurulmalı və dövlətlərin milli bayramları da efir vasitəsilə yayımlanmalıdır: "Türk Şurasına üzv dövlətlərin aparıcı mətbuat orqanları, televiziyalar bir-biri ilə əlaqə qurub. Nəyə görə bizim televiziya kanallarının yerli kabel şəbəkələrində təmsilçiliyi təmin olunmur? Təəssüflər olsun ki, Azərbaycan televiziyalarının nə Qazaxıstanda, nə də Qırğızıstanda yayımlanmasına rast gəlinmir. Təklif edirəm ki, Azərbaycanın dövlət və İctimai Televiziyası Türk Şurasına üzv dövlətlərdə yayımlansın. Eyni zamanda həmin dövlətlərin də dövlət və ictimai televiziyaları Azərbaycanda yayımlansın".

PA rəsmisi əlavə edib ki, vahid türkdilli televiziyanın yaradılması təşəbbüsü dörd ildir ki, müzakirə olunur: "Təəssüflər olsun ki, bu məsələ həllini tapmayıb. Mövcud televiziyalardan birinin türkdilli dövlətlərin vahid kanalına çevrilməsi, bu funksiyanın hansısa formada icra edilməsi masa üzərindədir. "TRT AVAZ" kanalı bu menada müzakirə obyektidir".

Qazaxıstanın informasiya və sosial inkişaf nazirinin müavini Marad Azilxanov qeyd edib ki, ölkəsi Türk Şurasının üzvü olan dövlətlərin telekanallarının və informasiya agentliklərinin əməkdaşlığının genişləndirilməsini dəstəkləyir. O təklif edib ki, Şuraya üzv ölkələr Qazaxıstanın birinci Prezidenti Nursultan Nazarbayevin "Böyük Çölün yeddi özəlliyi" adlı məqaləsi ilə bağlı sənədli filmin çəkilməsinə dəstək versinlər. Nazir müavini, eyni zamanda, üzv dövlətlərin telekanallarında 4 ölkənin filmlərinin nümayiş olunması təklifini yüksək dəyərləndirib.

Qırğızıstanın Mədəniyyət və Turizm Nazirliyinin şöbə müdiri Baxtımgül Novruzbayova bildirib ki, ölkəsi Şuraya üzv dövlətlərə aid xəbərlərin və videoların yayılmasını təmin edir. Qırğızıstan Türk Şurası ölkələrində baş verən hadisələrin operativ şəkildə geniş coğrafiyaya çatdırılmasında maraqlıdır. B.Novruzbayova vurğulayıb ki, media qurumlarının imicinin artırılması istiqamətində daha çox iş görülməlidir.

Türkiyə Prezidentinin baş müşaviri, mədəniyyət, informasiya və turizm nazirinin müavini, TRT-nin İdarə Heyətinin üzvü Mustafa Akış çıxış edərək deyib ki, 2009-ci ildə yaradılan TRT AVAZ türk xalqları arasında əməkdaşlığı daha da gücləndirdi. Bu kanal türk xalqlarına aid mədəniyyətin və tarixin dünya ictimaiyyətinə çatdırılmasında mühüm işlər görür. TRT AVAZ-ın hazırladığı verilişlər TRT-nin digər kanallarında da nümayiş olunur. TRT AVAZ-ın həyata keçirdiyi işlər bundan sonra da gücləndirilməlidir. Bunun üçün türk dünyasının dəstəyi artırılmalıdır.

**Qeyd edək ki, toplantı çərçivəsində milli ictimai televiziya kanalları arasında çoxtərəfli texniki əməkdaşlıq protokolunun imzalanması mərasimi olacaq.**

# Rusiyanın Cənubi Qafqaz dəmir yolu strategiyasında Azərbaycan dəmir yolları Ermənistanı kölgədə qoymağa başlayıb

**Məlum olduğu kimi, "Rusiya Dəmir Yolları" Açıq Səhmdar Cəmiyyətinin baş direktoru və idarə heyətinin sədri Oleq Belozyorov Azərbaycanda səfərdə olub. O, Azərbaycanda bir sıra görüşlər keçirib.**



*"Praktiki olaraq bu ölkənin dəmir yolu sistemi yerində sayır"*

***Əli Əlirzayev:*** *"Ona görə Ermənistan bu sahədə kölgədə qalıb ki, bu ölkənin nəqliyyat daşımalarında Rusiya üçün hansısa önəmi yoxdur"*

Azərbaycan və Rusiya dəmir yolları qurumları arasında əməkdaşlığın inkişafı haqqında memorandum imzalanıb. Memorandum Avrasiyadakı beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı və istismarı, o cümlədən xarici iqtisadi əlaqələrin genişləndirilməsi, eləcə də tranzit və ixrac-idxal daşımaları üçün optimal nəqliyyat şəraitinin təmin edilməsi məqsədilə koordinasiyalı siyasət həyata keçirilməsinə yönəlib. Tərəflər dəmir yolu sahəsində əməkdaşlığı, o cümlədən, milli dəmir yolu şirkətlərinin nəqliyyat və tranzit potensialının artırılmasını "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin qərb marşrutu çərçivəsində İran-Azərbaycan-Rusiya-Avropa marşrutları, eləcə də Bakı-Tiflis-Qars dəmir yolunun infrastrukturu vasitəsilə Rusiya-Azərbaycan-Türkiyə marşrutu üzrə yükdaşımaların intevsivləşməsinə kömək edəcək tədbirləri birgə həyata keçirmək yolu ilə inkişaf etdirmək niyyətindədirlər.

Sözügedən proseslərdə görünən odur ki, son vaxtlar Cənubu Qafqazda Azərbaycan dəmir yollarının Rusiya üçün önəmi artır. Azərbaycanın malik olduğu müasir dəmir yolu infrastrukturu Rusiyanın Avropanın bəzi regionlarına ölkəmiz vasitəsilə çıxmasını daha sərfəli edir. Yolun daha qısa olması bu baxımdan yeni imkanlar açır. Bununla yanaşı, "Şimal-Cənub" nəqliyyat dəhlizinin tikintisi ilə bağlı işlər gedir. Hansı ki, bunun sayəsində İran körfəzindən yüklər Azərbaycan vasitəsilə dəmir yolu ilə Rusiyaya çatdırılacaq.

Bütün bunlarla paralel, diqqətçəkən məqam odur ki, Ermənistan dəmir yollarının Rusiya üçün önəmi azalır. Bu bir sıra məsələlərin timsalında açıq-aydın özünü göstərir. Əvvəla ötən il Ermənistanda "Rusiya Dəmir Yolları"nın törəmə şirkətinə cinayət işi qaldırıldı. Şirkət vergidən yayınmada ittiham olunur. Baxmayaraq ki, "Cənubi Qafqaz Dəmir Yolu" QSC "Rusiya Dəmir Yolları" ASC-nin 100 faizlik törəmə şirkətidir. Başqa bir tərəfdən, Ermənistanın işğalçılıq siyasəti ucbatından Azərbaycan və Türkiyə bu ölkə ilə sərhədləri bağlayıb. Ermənistan beynəlxalq nəqliyyat layihələrindən kənarda qalıb. Qalır Gürcüstanla İran. İranla Ermənistanın dəmir yolu əlaqəsi yoxdur. Gürcüstana gəldikdə isə, Rusiyadan gələn dəmir yolu Abxaziyadan keçdiyi üçün məlum səbəblərdən bu yol bağlıdır. Yəni Rusiya sözügedən dəmir yolu ilə də Ermənistanla əlaqə qurmaq imkanından məhrumdur. Ermənistandan hər hansı tranzit ölkə kimi faydalanmaq mümkün deyil.

O baxımdan bütün bunları, Azərbaycan dəmir yollarının Cənubi Qafqazda Rusiya üçün artan önəmini ekspertlər necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən iqtisadçı-alim Əli Əlirzayevin fikrincə, Rusiya tranzit sahəsində Azərbaycanın artan önəminin fərqindədir:** "Rusiya görür ki, Azərbaycan beynəlxalq tranzit nəqliyyat layihələri ilə bağlı real addımlar atır. Ölkədə bir sıra nəqliyyat layihələri reallaşdırılır. O cümlədən, dəmir yolunun inkişafı ilə bağlı işlər görülür. 2017-ci ilin oktyabrında Bakı-Tiflis-Qars dəmir yolu işə düşdü. Tikilməkdə olan "Şimal-Cənub" nəqliyyat dəhlizi Rusiyaya İran körfəzi sahillərinə çıxış imkanı yaradacaq. Dəmir yolu ilə ora yüklərin daşınmasına şərait yaradacaq. Çindən gələn yüklərin Azərbaycan üzərindən Avropaya çatdırılması gündəmdədir. Ona görə də Rusiya böyük qonşu dövlət olaraq Azərbaycanın bu imkanlarından istifadə etmək istəyir. O üzdən, iki ölkə arasında dəmir yolu sahəsində əməkdaşlıq daha da genişlənir. Ancaq Ermənistanla əməkdaşlığa gəldikdə isə biz bunu görmürük. Baxmayaraq ki, Ermənistan Avrasiya İqtisadi İttifaqında təmsil olunur. Ona görə Ermənistan bu sahədə kölgədə qalıb ki, bu ölkənin nəqliyyat daşımalarında Rusiya üçün hansısa önəmi yoxdur. Praktiki olaraq bu ölkənin dəmir yolu sistemi yerində sayır.

**Türkiyə və Azərbaycanla sərhəd bağlı, Gürcüstanla bu sahədə əlaqələr isə yarımçıqdır. Ona görə də proseslərin Azərbaycanın xeyrinə dəyişməsi gözlənilən idi və bu tendensiya müsbətdir. O mənada ki, tranzit ölkə olaraq Azərbaycanın gəlirləri artacaq".**

***Vidadi ORDAHALLI***

# Moskvada Azərbaycan səfirliyində yanğın feykini kim(lər) nə məqsədlə yaydı...

**Mayın 6-da TASS agentliyi Azərbaycanın Rusiyadakı səfirliyinin binasında yanğın baş verməsi haqqında xəbər yayıb. Məlumata görə, Moskvanın mərkəzində yerləşən səfirlik binasında yanğının söndürülməsinə bir neçə yanğınsöndürən briqada cəlb edilib.**



*"Son bir il ərzində yayımlanan məlumatların intensivliyinə nəzər salsaq, bu, sıradan bir informasiya mənbəyinin xətası deyil"*

## Müşfiq Ələsgərli: *"Sanki kimlərsə münasibətlərin pozulması, qarşılıqlı ittihamların qızışdırılması üçün addımlar atır"*

Ancaq Rusiya KİV-inin diplomatik korpusun binasında yanğınla bağlı yaydığı xəbər dezinformasiyadır. Bu xəbəri Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu təkzib edib. O, media nümayəndələrinə açıqlamasında səfirliyin binasında yanğının baş vermədiyini dilə gətirib: "Səfirlik binasının yanması barədə xəbərlər Rusiya KİV-inin dezinformasiyasından başqa bir şey deyil".

Maraqlıdır, nə səbəbdən bu tip həqiqətə uyğun olmayan xəbərlər yayılır? KİV-in yanlış məlumat yaymaqda xüsusi məqsədi varmı?

**Məsələ ilə bağlı fikir bildirən media eksperti Müşfiq Ələsgərli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bəzən KİV-də dəqiqləşdirilməmiş materiallar yayımlanır.** Bu bir xətadır. Ancaq Azərbaycanın Rusiyadakı səfirliyinin binasında yanğının baş verməsi haqqında yanlış məlumatın yayılması təsadüfi xəta kimi qeyd oluna bilməz: "Son bir il ərzində Rusiya mediasında Azərbaycan əleyhinə çoxlu sayda informasiya verilib. Həmin informasiyalar sayəsində diaspor təşkilatları arasında qarşıdurma yaradılır. Gah səfirliklə, gah da hansısa fərdlərlə bağlı dəqiqləşdirilməmiş material yayımlanır. Bu cür materiallar dəfələrlə yayılır. Sanki kimlərsə münasibətlərin pozulması, qarşılıqlı ittihamların qızışdırılması üçün addımlar atır. Son bir il ərzində yayımlanan məlumatların intensivliyinə nəzər salsaq, bu, sıradan bir informasiya mənbəyinin xətası deyil".

**Həmsöhbətimiz hesab edir ki, ictimaiyyət bu cür xəbərlərə qarşı diqqətli olmalıdır: "Hüquq-mühafizə orqanları yanlış xəbəri yayan mənbələri və hansı məqsədə xidmət etdiyini müəyyənləşdirməlidirlər. Sevindirici haldır ki, dövlət qurumları Azərbaycanın Rusiyadakı səfirliyinin binasında yanğın baş verməsi haqqında xəbərə dərhal reaksiya verib, məlumatın yanlış olduğunu bəyan etdilər".**

*Günel CƏLİLOVA*

# Turan ölkələrində vahid türkdilli yeni televiziya, ya...

**Ortaq mədəniyyəti, dili, tarixi paylaşdığımız digər türkdilli xalqlarla əlaqələrimizin daha geniş şəkildə inkişaf etdirilməsi günümüzün ən zəruri məsələlərindən birinə çevrilib. Heç şübhəsiz ki, indiyə qədər dövlət səviyyəsində bu istiqamətdə bir sıra addımlar atılıb.**



***Buludxan Xəlilov:*** *"Türkdilli dövlətlərin vahid televiziya kanalı elə Azərbaycanda yaradılsa, daha məqsədəuyğun olar, çünki bizim bu sahədə təcrübəmiz var"*

***Azər Həsrət:*** *"Bu gün türkdilli dövlətlərin vahid televiziya kanalının yaradılması olduqca vacibdir"*

Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) informasiya və media üzrə məsul nazirlərinin və yüksək vəzifəli rəsmilərinin II toplantısı keçirilir.

Tədbirdə çıxış edən Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi - şöbə müdiri Əli Həsənov maraqlı və böyük tarixi əhəmiyyətə malik olan təklif verib. Ə.Həsənov bildirib ki, televiziya sahəsində qarşılıqlı əlaqələr qurulmalı və dövlətlərin milli bayramları da efir vasitəsilə yayımlanmalıdır: "Türk Şurasına üzv dövlətlərin aparıcı mətbuat orqanları, televiziyalar bir-birilə əlaqə qurub. Nəyə görə bizim televiziya kanallarının yerli kabel şəbəkələrində təmsilçiliyi təmin olunmur? Təəssüflər olsun ki, Azərbaycan televiziyalarının nə Qazaxıstanda, nə də Qırğızıstanda yayımlanmasına rast gəlinmir. Təklif edirəm ki, Azərbaycanın Dövlət və İctimai Televiziyası Türk Şurasına üzv dövlətlərdə yayımlansın. Eyni zamanda, həmin dövlətlərin də dövlət və ictimai televiziyaları Azərbaycanda yayımlansın".

O, həmçinin, vurğulayıb ki, vahid türkdilli televiziyanın yaradılması təşəbbüsü dörd ildir müzakirə olunur: "Təəssüflər olsun ki, bu məsələ həllini tapmayıb. Mövcud televiziyalardan birinin türkdilli dövlətlərin vahid kanalına çevrilməsi, bu funksiyanın hansısa formada icra edilməsi masa üzərindədir".

Türkdilli dövlətlərdə mövcud olan telekanallardan birinin bazasında türkdilli dövlətlərin vahid televiziya kanalının yaradılması, yaxud tamamilə yeni bir telekanal açılmasının vacib olduğunu deyən ekspertlər hesab edirlər ki, bu məsələnin reallaşması üçün türkdilli dövlətlər tərəfindən təxirəsalınmaz tədbirlər həyata keçirilməlidir.

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiri, professor Buludxan Xəlilovun fikrincə, hazırda türkdilli dövlətlərin vahid televiziya kanalının yaradılması zərurətə çevrilib.** B.Xəlilovun sözlərinə görə, Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi - şöbə müdiri Əli Həsənov belə aktual məsələni gündəmə gətirməsi ilə Azərbaycan dövlətinin iradəsini və bu məsələdə maraqlı olduğunu ortaya qoyur. "Bu gün gerçəkdən də türkdilli dövlətlərin vahid televiziyasının yaradılmasına ciddi zərurət var. Bu televiziya mövcud telekanallardan birinin bazasında da yaradıla, yaxud tamamilə yeni bir telekanal da açıla bilər. Artıq bununla bağlı Azərbaycan dövləti ortaya iradə qoyub və belə bir telekanalın yaradılmasında maraqlı olduğunu qeyd edib. Bu gün xalqların dilinin, mədəniyyətinin, iqtisadiyyatının bir-birinə inteqrasiyası çox aktual bir məsələdir. Bu inteqrasiyanı isə yalnız rəsmi sənədlərlə, yazışmalarla reallaşdırmaq mümkün deyil. Bu istiqamətdə praktik işlər görülməlidir. Fikrimcə, o praktik işlərdən biri də türkdilli dövlətlərin vahid televiziya kanalın yaradılmasıdır. Vaxtilə İctimai Televiziyada türkdilli xalqlarla bağlı "Körpü" proqramı yayımlanırdı. Bu verilişə bütün türkdilli xalqların təmsilçiləri qoşulurdu, qardaş türk xalqlarının mədəniyyəti, ədəbiyyatı, etnoqrafiyası, rəqsləri, inancları, həyat tərzləri haqqında maraqlı təqdimatlar olurdu. Mən özüm də həmin proqramda dəfələrlə iştirak etmişəm. Sonra, nədənsə, İctimai Televiziyada həmin proqram yığışdırıldı. İndi yeni televiziyanın yaradılması ideyası gerçəkləşərsə, bu, türkdilli xalqların bir-birini daha yaxından anlaması, onlar arasında daha sıx əlaqələrin qurulması baxımından çox əhəmiyyətli olacaq. Son illər ortaq türk dilindən çox danışırıq, ortaq türk dilini işlətməsək, bu problemi necə həll edə bilərik? Ortaq türk dilini formalaşdırmağın əsas yolu da türkdilli dövlətlərin vahid televiziya kanalının yaradılmasından keçir. Bu kanalın yaradılmasına ciddi ehtiyac var və bu televiziya gələcəkdə ortaq mətbuat orqanlarının da yaranmasına gətirib çıxaracaq. Bu televiziyanın hansı ölkədə açılmasına gəlincə, açıq demək lazımdır ki, bu gün Türkiyə türk dünyasının düşünən beyni, Azərbaycan isə döyünən ürəyidir. Bu televiziyanın açılmasında düşünən beyinlə döyünən ürəyin vəhdəti əsas rol oynamalıdır. Mənə elə gəlir ki, bu televiziya Türkiyənin və Azərbaycanın koordinasiyası əsasında ya Türkiyədə, ya da Azərbaycanda mövcud telekanalların birinin bazasında, yaxud da ayrıca televiziya şəklində yaradılmaldır. Azərbaycanda türkdilli xalqların dilinin, mədəniyyətinin, tarixinin öyrənilməsi sahəsində böyük ənənə var, eyni zamanda da bizdə "Körpü" verilişi bu məsələyə həsr edilirdi. Düşünürəm ki, türkdilli dövlətlərin vahid televiziya kanalı elə Azərbaycanda yaradılsa, daha məqsədəuyğun olar, çünki bizim bu sahədə təcrübəmiz var. Bu kanal Azərbaycandan bütün türkdilli dövlətlərə yayılar. Bu televiziya kanalının çox uğurlu perspektivi olacaq. Gələcəkdə bir türk xalqları institutu və universiteti də yaradıla bilər. Bizim türkdilli dövlətlərlə əlaqələrimizi genişləndirmək üçün Türk dünyası üçün kadrlar hazırlamalıyıq" - deyə B.Xəlilov qeyd etdi.

**Əməkdar jurnalist, tanınmış media eksperti Azər Həsrət də "Bakı-Xəbər"ə bildirdi ki, türkdilli ölkələrin vahid televiziyasının yaradılması böyük hadisə olardı.** "Əslinə qalanda, Abdulla Gül Türkiyə Prezidenti olduğu dövrdə bununla bağlı təşəbbüs oldu. Bunun da nəticəsində "TRT Avaz" kanalı fəaliyyətə başladı. Həmin kanal bu gün də efirdədir. Təəssüflər olsun ki, açıq efirdə yayımlanmır, ancaq kabel və peyk üzərindən yayımı həyata keçirilir. Bu kanal ayrı-ayrı türkdilli xalqların dillərində, ləhcələrində proqramlar təqdim edir. Bunu da tərcüməsiz efirə verirlər. Əlbəttə ki, bu gün türkdilli dövlətlərin vahid televiziya kanalının yaradılması olduqca vacibdir. Bu baxımdan, düşünürəm ki, yeni televiziya kanalı yaradılana qədər ilkin mərhələdə "TRT Avaz"ın bir platforma kimi götürülməsi işimizə yararlı olardı".

A.Həsrət qeyd etdi ki, türkdilli xalqların vahid televiziyasının yaradılması istiqamətində dövlət addımlar atır, bu istiqamətdə də özəl təşəbbüslər olarsa, müsbət qarşılanar.

*İradə SARIYEVA*

**Ermənistanın Baş naziri Nikol Paşinyanın işğal altında olan Dağlıq Qarabağa qanunsuz səfər edəcəyi gözlənir. Belə ki, sözügedən qanunsuz səfərdə 3 məqsəd var.**

# Paşinyan Azərbaycan ərazilərində 3 qanunsuz tədbirdə iştiraka hazırlaşır - beynəlxalq sülh təminatçıları niyə susur...




*"Xüsusən də ATƏT-in Minsk Qrupunun bunu görməzdən gəlməsi heç bir məntiqə sığmır"*

## *Əli Orucov: "Bu onu göstərir ki, beynəlxalq qurumlar münaqişənin həllində maraqlı deyil"*

Mayın 9-da hazırkı Baş nazir Şuşanın "azad edilməsi"nin 27-ci ildönümü ilə bağlı tədbirlərə qatılacaq. Həmçinin, Böyük Vətən Müharibəsinin başa çatması ilə bağlı keçirilən tədbirlərdə iştirak edəcək. Ən nəhayət, Paşinyan "Artsax ordusu"nun yaradılması ilə bağlı tədbirdə iştirak edəcək.

Bütün bunlar açıq-aşkar dövlətin suverenliyinin, sərhədinin başqa bir dövlət başçısı tərəfindən pozulacağı deməkdir. Hansı ki, Paşinyan və ondan əvvəl Ermənistana rəhbərlik edənlər dəfələrlə buna yol veriblər. Həyasızlığın dərəcəsinə bax ki, indidən Ermənistan tərəfi bunu bəyan edir. Bildirirlər ki, sözügedən qanunsuz səfərdə 3 mühüm tədbir qeyd olunacaq. Ən qəribəsi odur ki, Azərbaycanın ərazi bütövlüyünü tanıyan beynəlxalq birlik buna seyrçi mövqedən yanaşır. Xüsusən də ATƏT-in Minsk Qrupu. ATƏT-in Minsk Qrupu, digər beynəlxalq qurumlar buna reaksiya vermirlər. Hansı ki, vasitəçilik missiyasını yerinə yetirən bu təşkilat buna reaksiya verməli idi. Ən azından, Ermənistana xatırlatmalı idi ki, belə səfərlər sülh danışıqlarına zərər vuracaq. Ancaq bunların heç biri yoxdur. Ekspertlər beynəlxalq qurumların Paşinyanın gözlənilən qanunsuz səfərinə biganə münasibət sərgiləmələrini necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən AMİP funksioneri Əli Orucovun sözlərinə görə, bu onu göstərir ki, beynəlxalq qurumlar münaqişənin həllində maraqlı deyil:** "Xüsusən də ATƏT-in Minsk Qrupunun bunu görməzdən gəlməsi heç bir məntiqə sığmır. Baxmayaraq ki, onlar bu məsələyə reaksiya verməyə borclu idilər. Ancaq təəssüf ki, bu baş vermədi. Məlum olan odur ki, ATƏT-in Minsk Qrupu münaqişənin həllində maraqlı deyil. Onların məqsədi ancaq ondan ibarətdir ki, Dağlıq Qarabağda müharibə yenidən alovlanmasın. Vasitəçilər sülh əldə olunmasında səmimi deyillər. Bu səbəbdən indiyə qədər heç bir həmsədr dövlət Paşinyana demir ki, bu nə hoqqadır. Beynəlxalq birliyin biganəliyi üzündən 30 ilə yaxındır problem həllini tapmır".

*Vidadi ORDAHALLI*

**Gürcüstandan Azərbaycana yönələn sərhəd və ərazi iddiaları hər gün yeni formada özünü büruzə verməyə başlayıb. Bu xüsusilə də Salome Zurabişvilinin prezident seçilməsindən sonra daha intensiv hal alıb. Hər iki ölkədən yaranmış vəziyyətə etiraz səsləri qaldırılsa da, sanki prosesi qızışdırmaqda olan maraqlı qüvvələrin fəallığı nəzərə çarpır.**

# Gürcüstan - Azərbaycan sərhədində təşkil edilmiş məbəd aksiyaları hardan idarə olunur...



*"Təəssüf ki, bugünkü hakimiyyət Rusiya və Ermənistandan dəstəklənən həmin separatçıların diqtəsilə hərəkət edir"*

## *Azər Süleymanov: "...həm İvanaşvilini, həm də Zurabişvilini öz təsiri altına salıb"*

İndi də Azərbaycan-Gürcüstan sərhədinin Keşikçidağ monastır kompleksinin yerləşdiyi hissəsində gürcü vətəndaş fəalları toplaşaraq aksiya keçiriblər. Fəallar əl-ələ tutaraq monastır kompleksinin sərhədin Azərbaycan tərəfində qalan hissəsini əhatəyə alıblar. Fəalların bildirdiyinə görə, onların məqsədi kompleksin Gürcüstanın tərkibində olduğuna dair Azərbaycana mesaj verməkdir. Aksiyada iştirak edənlər gürcü milli mahnıları oxuyublar. Onlar bir neçə kilometr piyada yol qət edərək monastır kompleksinə gəliblər. Kompleksə aparan cığırların bəzilərində Azərbaycan sərhədçiləri dayanıb, onlar situasiyaya müdaxilə etmədən vəziyyəti izləyiblər. Perimetr boyu gürcü sərhədçiləri də dayanıb və onlar fəalların hərəkətinə nəzarət ediblər. Aksiyanı "Güc birlikdədir" adlı hərəkat təşkil edib. Hərəkatın rəhbəri David Katsarava bildirib ki, onlar belə aksiyaları müntəzəm olaraq təşkil edəcəklər.

Xatırladaq ki, Keşikçidağ monastır kompleksi ilə bağlı məsələ aprelin 25-də Azərbaycan sərhədçilərinin gürcü ziyarətçilərinin kompleksə ziyarətini məhdudlaşdırmasından sonra gündəmə gəlib. Daha sonra iki ölkə xarici işlər nazirlikləri məsələni yoluna qoyublar və sərhədlərin demarkasiyasına dair danışıqlara hazır olduqlarını bildiriblər.

Bundan əvvəl Gürcüstanın Baş naziri Mamuka Baxtadze deyib ki, Gürcüstan-Azərbaycan sərhədində razılaşdırılmayan ərazilərin delimitasiyası və demarkasiyası prosesi mürəkkəb olacaq, lakin son nəticə uğurlu olacaq.

Azərbaycan XİN-in mətbuat katibi Leyla Abdullayeva bundan əvvəl demişdi ki, Azərbaycan həmişə Azərbaycan-Gürcüstan sərhədinin tezliklə delimitasiya olunmasının tərəfdarı olub və bu prosesi ən qısa müddət ərzində başa çatdırmağa hazırdır.

Lakin Bakının obyektiv mövqeyinə baxmayaraq, gürcü tərəf inadla sərhədlərin dəqiqləşdirilməsini tezləşdirməyə çağırır. Hətta Gürcüstanın din xadimləri də qədim alban kilsəsinə iddialarını davam etdirir, konflikt yaratmağa cəhd göstərirlər.

Qeyd edək ki, Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi general-polkovnik Elçin Quliyev və Gürcüstan Sərhəd Polisinin rəisi Teymuraz Kekelidzenin başçılıq etdiyi nümayəndə heyətlərinin "Şəmkir" sərhəd dəstəsinin xidməti ərazisində, dövlət sərhədində işçi görüşü keçirilib. DSX-nin Mətbuat mərkəzindən verilən məlumata görə, görüş zamanı Azərbaycan-Gürcüstan dövlət sərhədində əməliyyat şəraiti, sərhəd təhlükəsizliyinə qarşı təhdidlərlə birgə mübarizə aparılması, məlumat və təcrübə mübadiləsinin davam etdirilməsi, əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi məsələləri müzakirə olunub.

Tərəflər ikitərəfli əməkdaşlığın inkişaf dinamikasını müsbət qiymətləndiriblər, Azərbaycan və Gürcüstan sərhəd qurumları arasında mövcud münasibətlərin səviyyəsinin dövlət sərhədində qanunsuz fəaliyyətlərin qarşısının alınması üzrə məsələlərin birgə həll edilməsinə töhfə verdiyini vurğulayıblar.

Bütün bu tədbirlərə baxmayaraq, Gürcüstan tərəfdən Azərbaycana yönəlik ərazi iddialarının irəli sürülməsinin səngiməməsi maraqlı versiyanı ortaya çıxarmış olur. **Məhz bu məqama aydınlıq gətirmək üçün Gürcüstan parlamentinin deputatı Azər Süleymanovla əlaqə saxladıq.** O, "Bakı-Xəbər"ə eksklüziv açıqlamasında bildirdi ki, sərhədlə bağlı qalmaqalın tarixi yeni deyil: "Gürcüstanda hakimiyyətə İvanaşvilinin komandası gələndən sonra, demək olar ki, azərbaycanlılara qarşı tamamilə fərqli münasibət sərgilənməyə başladı. Onlar Azərbaycan tarixini və bizim millətin dərdini bilmədikləri üçün, belə addımlar atmaqla prosesləri 90-cı illərə doğru qaytarmağa başladılar. Son zamanlar sərhəd məsələsinin yenidən qızışması Salome Zurabişvilinin prezident seçilməsindən sonra sürətləndi. O, sərhədə gedib, heç də prezidentə yaraşmayan tərzdə bəyanatlar verdi. Sərhədə yaxın yerdə olan kilsənin Gürcüstana aid olduğunu bildirdi. Bu gün "Gürcü arzusu" partiyası azərbaycanlılara qarşı çox sərt siyasət yürdür. Zurabişvilini biz prezident kimi görmürük. Çünki əhalinin böyük əksəriyyəti ona qarşı səs verib. Elə fəaliyyətində də göstərir ki, o, yalnız İvanaşvilinin prezidenti rolunda çıxış edir, onun dediyi ilə oturub-durur. Onun Gürcüstanda yaşayan azərbaycanlılar və başqa profilli bəyanatları qıcıq doğurur. Bu adam deyir ki, Abxaziya Gürcüstan üçün qanqrenadır, kəsib atmaq lazımdır. Əminliklə deyə bilərəm ki, Zurabişvili bu hərəkətləri prosesləri qızışdırmaqda olan 3-cü qüvvənin təhriki ilə edir. Həmin 3-cü qüvvə həm İvanaşvilini, həm də Zurabişvilini öz təsiri altına salıb. Artıq biz bunu yalnız sərhədlə bağlı məsələdə deyil, həm də digər vacib sahələrdə hiss edirik. Gürcüstan bazarında monopolist olan SOCAR artıq Rusiyanın şirkətləri tərəfindən sıxışdırılmağa başlayıb. Bizim xalqlarımız arasında problem ola bilməz. Biz əsrlərdir yanaşı yaşayırıq. Bizim problemimiz separatçı qüvvələrlə olub. Təəssüf ki, bugünkü hakimiyyət Rusiya və Ermənistandan dəstəklənən həmin separatçıların diqtəsilə hərəkət edir. Gürcüstanın sabiq məmurları və siyasiləri tərəfindən səsləndirilən bəyanatlar da İvanaşvilinin təhriki ilə olub. Mən hər iki dövlətin rəsmilərinə səslənərək deyirəm ki, təxribatların qarşısını almaq istiqamətində səylərini artırsınlar. Heç vaxt istəmirik ki, bu iki xalq və dövlət arasında narazılıq baş qaldırsın".

*Məhəmmədəli QƏRİBLİ*

**Bəşər övladı yaranandan müharibələr onu həmişə qara kabus kimi izləyib. Azərbaycan xalqı təkcə XX əsrdə neçə-neçə qırğınlardan, qanlı savaşlardan keçib, böyük itkilər verib. 300 min nəfərdən çox vətəndaşımız İkinci Dünya müharibəsindən geri qayıtmayıb. Azərbaycanın taleyinə 20 Yanvar faciəsi və Xocalı soyqırımı düşüb. Qarabağ müharibəsində on minlərlə insan itirmişik. Erməni faşizmi zaman-zaman Azərbaycan torpağında görünməmiş vəhşiliklər törədib.**

# Canlı tariximiz...



**Nəzakət MƏMMƏDOVA**
*Respublika Xatirə Kitabı Redaksiyasının Baş redaktoru*

Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun ekspedisiyasının Quba rayonunda aşkara çıxardığı kütləvi məzarlıqlar, qocaların, qadınların, uşaqların diri-diri torpağa gömülməsi faktları Azərbaycan tarixinin tükürpədici səhifələridir.

Zaman axıb gedir... İllər illəri, nəsillər nəsilləri əvəz edir… Dünya təzələnir… Bəşər tarixinin ən qanlı savaşlarından biri olan İkinci Dünya müharibəsindən yetmiş dörd il keçir...Yaddaşlarda yaşayır müharibə illəri, müharibə faciələri!..

Hələ də ümidini üzməyib yollara baxa-baxa yar-yoldaşını, doğmalarını, yaxınlarını gözləyən, gözü yollarda qalan nə qədər insan var! Onlar hələ də möcüzəyə inanır və bu inamla da yaşayırlar.

Vətən uğrunda canından keçən, şəhidliyə qovuşan, qanlı cəbhələrdə itkin düşən insanların yalnız bircə şeyə ehtiyacı var - yada salınmaq, xatırlanmaq…

Onların ruhu yalnız xatirələrə güvənir, xatırlanmaqdan, anılmaqdan rahatlıq, dinclik tapır…

Respublika Xatirə Kitabı Redaksiyasının kollektivi məhz belə savab və xeyirxah bir işlə məşğuldur. Gördüyümüz işin məqsəd və məramını ikicə kəlmə ilə belə ifadə etmək olar: bu kitabın nəşri ilə şəhid kimi dünyadan getmiş nə qədər insanın ruhu şad olur, doğmalarını, əzizlərini itirmiş insanlar isə "Xatirə Kitabı"ndan təsəlli tapırlar.

Bu möhtəşəm nəşrin mənası, dəyəri də elə bundadır. Odur ki, "Xatirə Kitabı"nı hazırlayıb ərsəyə gətirənlər öz nəcib, xeyirxah işlərinin nə qədər şərəfli olduğunu bilir, onun məsuliyyətini dərindən dərk edir və gördükləri bu xeyirxah işdən xüsusi fərəh duyurlar.

Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor Əli Həsənovun sədrliyi ilə fəaliyyət göstərən nüfuzlu redaksiya heyətinə akademiklər, görkəmli elm və mədəniyyət xadimləri və güc strukturlarının rəhbərləri daxildir.

Kitabın nəşrinə göstərdiyi diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev cənablarına redaksiyamız adından dərin təşəkkürümüzü bildirirk.

Azərbaycan xalqının keçdiyi qəhrəmanlıq yoluna işıq tutan Respublika Xatirə Kitabı Ulu Öndər, Ümummilli lider Heydər Əliyevin ortaya qoyduğu milli vətənpərvərlik iradəsi və birbaşa nəzarəti altında yaradılmış bir təşkilatdır. Təşkilat öz fəaliyyətini birbaşa olaraq Azərbaycan xalqının bilavasitə iştirak etdiyi münaqişələrdə - Böyük Vətən müharibəsi, məhəlli münaqişələr və nəhayət vətənimizin ən ağrılı problemi olan Dağlıq Qarabağ müharibəsi dövründə həlak olmuş, itkin düşmüş soydaşlarımızın şanlı xatirəsini əbədiləşdirmək üzərində qurmuşdur. Məhz Ulu Öndər Heydər Əliyevin xeyir-duası ilə yaradılmış Respublika Xatirə Kitabı Vətənimizin bu müharibələrdə olan itkilərini, xalqımızın qəhrəman övladlarının xatirəsini əbədiləşdirməklə bir daha dövlətimizin vətən uğrunda canından keçən övladlarına verdiyi qiyməti göz önünə gətirmiş olur.

Bu rəqəmlərə diqqət yetirmək, məncə, yerinə düşər. Təsəvvür edin, Böyük Vətən müharibəsi başlayanda, yəni 1941-ci ildə statistikaya görə Azərbaycanda əhalinin ümumi sayı 3,4 milyon nəfər idi. Buraya həm döyüş qabiliyyəti olan cavanlar və gənclər, həm əlillər, həm də qadın və uşaqlar daxil idi. 3,4 milyon nəfərdən 681 min nəfəri, o cümlədən 10 min qadın orduya səfərbər olmuşdur. Bunların yarısına, yəni 300 min nəfərə bir daha doğma yurduna qayıtmaq nəsib olmamışdır. Ürəkyandırıcı faktdır.

Respublika Xatirə Kitabı yarandığı gündən etibarən gərgin araşdırmalar və həyata keçirilən axtarışlarla Vətən uğrunda canından keçən hər bir qəhrəmanın adının əbədiləşdirilməsinə çalışır. Məhz bu fəaliyyətin məntiqi nəticəsi kimi qeyd etmək olar ki, artıq 16 cildi işıq üzü görən Xatirə Kitabının səhifələrində yüz minlərlə soydaşımızın adları əbədiləşdirilib tarixin yaddaşına həkk olunmuşdur. Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasətinin təzahürü olan Respublika Xatirə Kitabı vətənimiz Azərbaycanın tarixinə qızıl hərflərlə həkk olunan qəhrəmanlıq salnaməmizi gələcək nəsillərə ötürmək üçün var gücü ilə çalışmaqdadır. Respublika Xatirə Kitabı Redaksiyasının əməkdaşlarının apardığı araşdırmalar Vətən uğrunda canından keçən qəhrəmanların adlarının bu kitabın səhifələrində əks olunması istiqamətinə yönəlmişdir.

Müharibə tufanı sayı-hesabı bilinməyən Azərbaycan övladlarını Terek, Don, Volqa, Dnepr sahillərindən uzaq-uzaq diyarlara - Polşa, Macarıstan, Fransa, Avstriya, İtaliya və Yuqoslaviyaya, eləcə də dünyanın başqa-başqa ölkələrinə aparıb çıxarmışdır. Bu məmləkətlərin Qardaşlıq qəbiristanlıqlarında saysız-hesabsız vətən övladları uyuyur. Ünvanı olanlar da, olmayanlar da, yeri bilinənlər də, bilinməyənlər də var.

Torpaq uğrunda, Vətən yolunda canından keçən insanların xatirəsini yaşatmaq, əbədiləşdirmək, adını, şöhrətini nəsildən-nəslə çatdırmaq müqəddəs işdir. Onların adını gələcək illərə, əsrlərə aparan təkcə qranit abidələr, tunc heykəllər, mərmər salnamələr deyil, həm də sətirləri, səhifələri şəhid qanı ilə yazılmış kitablardır.

Bəşər övladı həmişə öz keçmişinə, yaddaşına qırılmaz tellərlə bağlı olub. Bu indi də belədir, həmişə də belə olacaq. Yaddaşı olmayan xalqın heç vədə gələcəyi ola bilməz. Yaddaş dünənlə bu gün, başqa sözlə desək, gedənlə gələn arasında körpüdür - mənəvi körpü! Müdrik bir deyim var: "Unutsaq - unudularıq".

Dünyanın ən qabaqcıl, sivil ölkələrində Xatirə Kitabları yaratmaq həmişə diqqət mərkəzində olub. Neçə-neçə qanlı müharibələr görmüş Almaniyada Xatirə Kitabının 800-ə yaxın cildi çapdan çıxıb. Almanlar müharibənin keçmiş SSRİ-nin müxtəlif guşələrinə səpələdiyi, o cümlədən Azərbaycana gətirib çıxardığı əsgər və zabitlərinin adlarını da bu kitabın cildlərinə daxil ediblər.

Müstəqil Dövlətlər Birliyində Xatirə Kitabının 1400 cilddə buraxılması nəzərdə tutulmuşdur. Bu monumental nəşrin 20 cildi Azərbaycanın payına düşür.

Nazirlər Kabinetinin 21 avqust 1991-ci il tarixli 277 saylı qərarı ilə Azərbaycan Sovet Ensiklopediyasının nəzdində fəaliyyət göstərən şöbə müstəqil quruma çevrilmişdir. Lakin nəzərəçarpacaq elə bir iş görülməmişdir.

1994-cü ildə Nazirlər Kabineti yenidən qərar vermişdir. Lakin bu dəfə də işlər lazımi məcraya düşməmişdir. Belə ki, ölkədə baş verən ictimai-siyasi hadisələrin gərginliyi və iqtisadi çətinliklər ucbatından redaksiyanın fəaliyyəti üçün vəsait ayrılması məsələsi öz həllini tapa bilməmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin tapşırığı ilə Nazirlər Kabineti 1 may 1997-ci il tarixdə "Azərbaycan Respublikası Xatirə Kitabının bərpa edilməsi haqqında" xüsusi qərar qəbul etmişdir. Sonra isə Azərbaycan Prezidenti Heydər Əliyevin imzaladığı 23 dekabr 1997-ci il tarixli "Vətən uğrunda həlak olanların xatirəsinin əbədiləşdirilməsi haqqında" Qanun qüvvəyə minmişdir. Beləliklə, Xatirə Kitabı Redaksiyası ayrıca bəndlə dövlət büdcəsinə daxil edilmiş və bununla da redaksiyanın fəaliyyətində dönüş yaranmışdır.

"Xatirə Kitabı"nı yaddaşımızın kitab abidəsi adlandırmaq olar. Onun yaradılmasında əsas məqsəd - İkinci Dünya müharibəsində, məhəlli münaqişələrdə, Əfqanıstan, Polşa, Çexoslovakiya hadisələrində, 20 Yanvar faciəsində, Xocalı soyqırımında, Qarabağ döyüşlərində, Milli müstəqilliyimiz yolunda, torpaqlarımızın azad olunması uğrunda gedən döyüşlərdə həlak olmuş və itkin düşmüş soydaşlarımız haqqında çoxcildli ensiklopediya hazırlamaqdır.

"Xatirə Kitabı" öz həcmi, səciyyəsi ilə seçilən unikal bir nəşrdir. Hər bir cilddə Vətən yolunda canından keçmiş soydaşlarımız haqqında yığcam bioqrafik məlumat verilir: döyüşçünün soyadı, adı, atasının adı, hansı hərbi komissarlıqdan orduya çağırıldığı tarix, hərbi rütbəsi, vəzifəsi, vuruşduğu, həlak olduğu, itkin düşdüyü yer və dəfn edildiyi məkan.

Həcmi 80-100 çap vərəqi olan və 2000 nüsxə ilə buraxılan Xatirə Kitabının hər cildində təxminən 15-16 min nəfər soydaşımız haqqında məlumat verilir. Burada "Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları", "İkinci Dünya müharibəsində həlak olmuş, itkin düşmüş və aldığı yaralardan vəfat etmiş Azərbaycan oğulları", "Əfqanıstan qurbanları", "Xocalı!.. Xocalı!..", "20 Yanvar şəhidləri", "Azərbaycanın Milli Qəhrəmanları", "Bu Vətən, bu torpaq unutmaz sizi" başlıqları altında şəkil-dəftərçələr yer alır.

Respublika Xatirə Kitabı Redaksiyası apardığı araşdırmalarda müxtəlif təşkilatlarla əməkdaşlıq edir, qəhrəman döyüşçülərimizin keçdiyi şərəfli döyüş yollarında kəsişən müxtəlif ölkələrə ezamiyyətlər təşkil etməklə bir daha həmin vətən övladlarının yazdığı qəhrəmanlıq salnaməsini araşdırır. Azərbaycan Respublikasının şanlı qəhrəmanlıq tarixini özünün bu günə qədər çap olunmuş 16 cildində və bundan sonra işıq üzü görəcək digər cildlərində əbədiləşdirəcək Respublika Xatirə Kitabı Redaksiyasına bu müqəddəs işində ən çox yardımçı olan təşkilatlardan biri vətənimiz Azərbaycanın qəhrəmanlıq salnaməsinin canlı şahidi və iştirakçısı, müharibə veteranlarının müqəddəs ocağı olan Azərbaycan Respublikası Veteranları Təşkilatıdır.

Respublika Xatirə Kitabı Redaksiyası Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması uğrunda əzmlə, cəsarətlə, bütün gücünü səfərbər edərək çalışmaqdadır. Redaksiyanın Vətən uğrunda canından keçən döyüş yoldaşlarının xatirəsinin əbədiləşdirilməsi işində böyük bir səbrlə apardığı araşdırmalar cildlərdə ayrıayrılıqda yer almışdır. Kollektivimiz fəaliyyətində təkcə respublikadaxili müvafiq arxiv materiallarının araşdırılması ilə kifayətlənməyib, öz gərgin əməyi sayəsində dünyanın bir sıra ölkələrindən, o cümlədən keçmiş SSRİ Müdafiə Nazirliyinin müxtəlif arxivlərindən, Rusiya Federasiyası Krasnodar diyarının "Arxivçilər Assosiasiyasından", "Sevastopolun müdafiəsi və azad edilməsi" muzeyindən, Şimali Osetiya Respublikası Mozdok rayonunun "Poisk" axtarış dəstəsindən, Moldova, Avstriya respublikalarından və digər yerlərdən əldə etdiyi məlumatları da araşdırıb dəqiqləşdirməklə daim axtarışdadır. Axtarış və araşdırmalar bu gün də davam edir. Bu axtarışlar nəticəsində indiyə qədər aşkara çıxarılmamış 3000 nəfərə yaxın şəhid və itkin soydaşlarımız barədə məlumatlar (Krasnodar diyarından 960, Moldovadan 206, Avstriyadan isə 900 nəfərdən çox) dəqiqləşdirilib və onların bir qismi cildlərə daxil edilib. Araşdırmaların nəticəsi olaraq əldə olunan yeni məlumatlar da gələcək cildlərdə yer alacaqdır.

Redaksiyamız gənc nəslin maarifləhnməsi, tariximizin qan yaddaşına yazılmış hadisələri, vətən övladlarının göstərdiyi qəhrəmanlıqların gələcək nəsillərə ötürülməsində böyük iş görür.

Xatirə Kitabının fəaliyyəti təkcə sadaladıqlarımla məhdudlaşmır. Biz faşizm üzərində Qələbənin 74 illik yubileyinə hazırlaşırıq. Bu vaxta qədər "Xatirə Kitabı" redaksiyasının əməkdaşlarının gərgin araşdırmaları nəticəsində çoxlu sayda soydaşlarımızın adları və soyadları, keçdikləri döyüş yerləri aşkarlanmışdır. Bu məlumatların toplanaraq 3 cilddə nəşr olunması nəzərdə tutulur.

Qeyd edək ki, əməkdaşlarımızın Respublikanın bölgələrində və xarici ölkələrdə araşdırmaları hələ də davam edir. Bu vaxta qədər əlavə kimi nəzərdə tutulan üç cilddən birinci cildi artıq redaksiyada yığılaraq çapa hazır vəziyyətə gətirilmişdir. Bundan əlavə redaksiyamız Gürcüstandan və Qərbi Azərbaycandan (Ermənistan) II Dünya Müharibəsində iştirak edərək həlak olmuş və itkin düşmüş soydaşlarımızı da unutmamışdır. Hazırda bu respublikalardan olan soydaşlarımızın məlumatları redaksiyada toplanaraq araşdırılır. Dəqiqləşdirmələr bitdikdən sonra əlavə iki kitab redaksiyamız tərəfindən nəşr edilərək xalqımızın ixtiyarına veriləcəkdir. Diqqətinizə çatdırıram ki, hazırda əməkdaşlarımızın gərgin əməyi sayəsində Gürcüstandan 500-dən artıq, Qərbi Azərbaycandan (Ermənistandan) isə 700-ə qədər soydaşımızın məlumatı axtarılıb tapılmışdır. Eləcə də Naxçıvan Muxtar Respubliukasından müharibədə həlak olmuş və itkin düşmüş soydaşlarımız haqqında da məlumatlar toplanılır. Bundan başqa, Azərbaycandan olan Sovet İttifaqı Qəhrəmanları haqqında nəfis tərtibatda bir kitab da yenidən işlənərək ayrıca nəşr ediləcək.

Xatirə Kitabı vətənimizin qəhrəmanlıq tarixini əbədiləşdirən bir nəşrdir. Respublika Xatirə Kitabı Redaksiyası olaraq həyata keçirdiyimiz bütün araşdırmalar zamanı bizə böyük və əvəzsiz köməkliyini əsirgəməyənlərə, veteranlarımıza dərin minnətdarlığımızı bildirir, onlara cansağlığı arzulayır, daim mübariz və əyilməz iradələrilə gələcək nəsillərin yoluna işıq tutmalarını diləyirik.

Qarşıdan 9 may - Qələbə günü yaxınlaşır. Redaksiyamız bu münasibətlə gənc nəslin nümunə götürdüyü, şərəfli və müqəddəs döyüş yolu keçmiş, hər biri canlı tarix olan müharibə veteranlarını və onların ailə üzvlərini ürəkdən təbrik edir, Müstəqil Azərbaycanımızın çiçəklənməsi yolunda onlara yeni uğur və qələbələr arzulayır.

**"Keşikçidağ" məbədi və yaxud da "David Qareci" məbəd kompleksi ilə bağlı yaranmış vəziyyət onu göstərir ki, Gürcüstanda müəyyən qüvvələr bu məsələ ətrafında süni gərginlik yaratmaqda israrlıdır. Azərbaycan dəfələrlə məsələnin beynəlxalq hüquq normaları əsasında həllinin tərəfdarı olduğunu bildirsə də, görünən budur ki, qarşı tərəfdə bəzi qüvvələr əks mövqedən çıxış edir. Hətta bura Gürcüstan patriarxlığı belə daxildir.**



# "Keşikçidağ" kompleksinə görə Gürcüstanı Azərbaycana qarşı qızışdıranlar var...

Xatırladaq ki, Gürcüstan patriarxlığı məsələ ilə bağlı açıqlama verib. Qurumun açıqlamasında deyilir: "Ruhani və ya dünyəvi şəxslər tərəfindən ölkələrimiz və xalqlarımız arasında dostluq münasibətlərinin gərginləşdirilməsinə yönəlmiş istənilən cəhdləri pisləyir, həmçinin müsəlman etiqadını təhqir edən ifadələri digər xalqlar, o cümlədən Gürcüstan müsəlmanlarına münasibətdə qəsdən və yaxud bilməyərəkdən edilmiş təxribat hesab edirik. Bunlarla bərabər, Gürcüstan patriarxlığı xalqın qəzəbini başa düşür. Sözügedən məbədlər kompleksi qədim gürcü mədəniyyətinə aid abidələrdir. Biz o abidələrin müdafiəsi üçün əlimizdən gələni edəcəyik". Halbuki, bu məbədlər kompleksi heç də gürcü mədəniyyətinə aid abidə deyil, lakin Gürcüstan patriarxlığı əks mövqedən çıxış edərək məsələnin həllində yeni problemlər yaradır.

Bununla yanaşı, bəzi gürcü fəalları da məsələ ətrafında problem yaradır. Bunu gürcü vətəndaş fəallarının məbəd ətrafında aksiyaları da təsdiq edir. Son belə aksiyada fəallar əl-ələ tutaraq monastır kompleksinin sərhədin Azərbaycan tərəfində qalan hissəsini canlı zəncirlə əhatəyə alıblar. Fəalların bildirdiyinə görə, onların məqsədi kompleksin Gürcüstanın tərkibində olduğuna dair Azərbaycana mesaj verməkdir. Aksiyada iştirak edənlər gürcü milli mahnıları oxuyublar. Onlar bir neçə kilometr piyada yol qət edərək monastır kompleksinə gəliblər.

Toplaşanlar Gürcüstan himnini oxuyublar, Azərbaycan sərhədçiləri aksiyanı izləyib və nəzarətdə saxlayıb. Əraziyə gürcü sərhədçiləri də cəlb olunub. Aksiyanı "Güc birlikdədir" adlı hərəkat təşkil edib. Hərəkatın rəhbəri David Katsarava bildirib ki, belə aksiyaları müntəzəm olaraq təşkil edəcəklər. Bütün bunlar vəziyyəti daha da gərginləşdirir.

Gürcüstanın baş naziri Mamuka Baxtadze isə hesab edir ki, Gürcüstan - Azərbaycan sərhədində razılaşdırılmayan ərazilərin delimitasiyası və demarkasiyası prosesi mürəkkəb olacaq. O bildirib ki, məsələnin həlli üçün müvafiq qurumların nümayəndələrindən ibarət xüsusi komissiya yaradılacaq. Lakin konkret nəticələrin əldə olunması üçün adi praktikadan istifadə olunacaq. Rəsmi Bakı isə məsələyə hələ də təmkinli yanaşır. Bundan əvvəl Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva monastır kompleksi ilə bağlı məsələyə münasibət bildirib. O deyib ki, Azərbaycanla Gürcüstan arasında dövlət sərhədinin delimitasiyası beynəlxalq təcrübədə tətbiq edilən qaydalara uyğun olaraq, qarşılıqlı ələqələndirmə prosedurları əsasında mövcud ikitərəfli formatlar çərçivəsində həll olunur: "Azərbaycan həmişə Azərbaycan-Gürcüstan sərhədinin tezliklə delimitasiya olunmasının tərəfdarı olub. Azərbaycan bu prosesi ən qısa müddət ərzində başa çatdırmağa hazırdır". Lakin gürcü tərəfindən atılan addımlar onların məsələyə fərqli prizmadan yanaşdığını göstərir. Gürcüstan Müsəlmanları İdarəsinin sədri hacı Ramin İgidov isə vurğulayır ki, yaranmış vəziyyətdə bəzi siyasətçilərin məsələyə məsuliyyətsiz yanaşması təəssüf doğurur.

O bildirib ki, sovet hökuməti dövründən iki qonşu dövlət arasında sərhədlərin dəqiqləşməməsi indi mübahisələrə səbəb olub: "Bu gün bəzi qüvvələr də bundan sui-istifadə edərək aranı qızışdırmağa çalışır. Bəzi qüvvələr diqqəti əsas məsələlərdən yayındırmaq və bölgədə vəziyyəti daha da gərginləşdirmək üçün süni problem yaratmağa çalışırlar. Təəssüf ki, Gürcüstanın bəzi siyasi və din xadimləri də məsələ ilə əlaqədar düşünülməmiş çıxışlar edirlər. Emosiyalara qapılaraq edilən məsuliyyətsiz çıxışlar xalqlarımız və dövlətlərimiz arasındakı isti münasibətə mənfi təsir edə bilər. Ona görə də bu məsələdə son dərəcə həssas olmalı, hisslərə toxunan sözlərdən çəkinməliyik. Biz din xadimləri çalışmalıyıq ki, məsələ gərginləşməsin".

Xatırladaq ki, Azərbaycanın daş yaddaşı hesab edilən "Keşikçidağ" mağara-məbədlər kompleksi Ağstafa rayonunun mərkəzindən 75 kilometr məsafədə, Gürcüstanla sərhəd zolağı boyunca ucalan Qatardağ silsiləsində yerləşir. O, dəniz səviyyəsindən 750-950 metr hündürlükdə, sıldırım qayalıqlar boyunca, üzü cənuba doğru 25 kilometrədək uzanır. Ərazidə dövrümüzədək gəlib çatan 100-ə yaxın təbii və süni mağara, Qafqaz Albaniyasının yerli əhalisi tərəfindən ilkin orta əsrlərdə sıldırım dik qaya üzərində müdafiə məqsədilə inşa edilmiş, 11 metr hündürlüyündə üçmərtəbəli qala və üzü cənuba baxan, birbirindən 1500 metr aralıda yerləşən, yerli daş materiallardan inşa olunmuş iki alban məbədi mövcuddur. Buradakı təbii mağaraların yaşı 2 min il bundan əvvələ gedir. Gürcülər bu monastır kompleksinin kimə məxsus olduğunun mübahisələndirir, onun qədim gürcülərə aid olduğunu iddia edirlər. Monastırda 3 dəfə tədqiqat aparan memar Rizvan Qarabağlı bildirir ki, hələ Sovet dövründə gürcülər "Keşikçidağ" məbədi adlanan alban kilsəsinin tavanına, loru dillə desək, "şpatlyovka" vurub üstündə ikonalar işləyiblər. Gürcülər bununla kilsəni özününküləşdirməyə çalışıb. Lakin abidənin qədim alban kilsəsi olduğunu sübut edən memarlıq üslubu var: "Alban kilsələri ilə gürcü kilsələri arasında bir o qədər də fərq hiss olunmamasının əsas səbəbi odur ki, gürcülər öz kilsələrini alban kilsələrinin davamı kimi inşa ediblər. Memarlıq baxımından gürcülər alban kilsələrinin eynisini yaradıblar. Alban kilsələri ilə gürcü kilsələrinin oxşarlıqları fərqlərindən daha çoxdur. Hər iki kilsədə tarbənd dairəvidir. Hər ikisində də aksida hissəsi nalvaridir. Fərqli cəhətləri də, əlbəttə, mövcuddur.

Məsələn, pəncərələrinin formasında, konstruksiyasında fərqlər var. Alban kilsələrinin əksəriyyətində divar çox qalın olduğuna görə pəncərələr içəriyə doğru çox geniş açılır.

Ancaq gürcü kilsələrində belə bir memarlıq üslubu yoxdur. Tikinti materialında da fərqlər var. Belə ki, gürcü kilsələrinin əksəriyyəti kərpic materialdan tikilib. Həmçinin, alban kilsələrindən fərqli olaraq, gürcü kilsələrində xaç xüsusi vurğulanır, qabarıq şəkildə və bacardıqca ən uca formada tikilir. Alban kilsələrində belə qayda olmayıb. Mən gürcülərin "David Qareci", azərbaycanlıların isə "Keşikçidağ" məbədi və ya "Qaraca" məbəd adlandırdığı kilsədə 3 dəfə tədqiqat aparmışam. Orada çoxlu mağara var və əksəriyyəti də süni mağaralardır, sonradan yaradılıb. Hələ Sovet dövründə, sərhədlər olmayan vaxt gürcülər dağı keçərək qədim Alban kilsəsinin tavanına, belə deyək, "şpatlyovka" vurub üstündə ikonalar işləyiblər. Biz tədqiqat zamanı da müəyyən etmişdik bunu.

Onlar ikonaları o qədər primitiv şəkildə işləyiblər ki, o işləmələr miqyas baxımından memarlıq üslubuna uyğun gəlmir. Bunu sıravi vətəndaş müəyyən etməyə bilər, ancaq istənilən memar, tədqiqatçı bu dəyişikliyin sonradan edildiyini aydın görə bilər. Bu, gürcülərin özününküləşdirmə siyasətidir. Keşikçidağ məbədində vaxtilə gürcülərin gördüyü işlərin hamısı qanunsuzdur".

**Xatırladaq ki, Gürcüstanla Azərbaycanın ümumi dövlət sərhədinin uzunluğu 480 kilometrdir. İki ölkə arasında sərhədlərin delimitasiyası prosesi 1996-cı ildə başlayıb. Bu gün sərhədin üçdə iki hissəsi razılaşdırılıb. Qalan hissələrlə bağlı məsləhətləşmələr davam edir.**

***Nahid SALAYEV***

**Azərbaycanın üç böyük qonşusunun ABŞ-la gərginləşən münasibətləri bölgədə yaxın tezlikdə proseslərin daha çox qeyri-sabit məcrada inkişaf edəcəyini göstərir. Söhbət Rusiya, İran və Türkiyənin ABŞ-la gərgin münasibətlərindən gedir. Belə görünür ki, hər üç ölkənin ABŞ-la əlaqələrinin yaxın tezlikdə normallaşması mümkün deyil. Əksinə, ABŞ-ın İranla müharibəyə hazırlaşması, Rusiya və Türkiyə ilə iqtisadi müstəvidə savaş aparması vəziyyəti daha təhlükəli istiqamətə sürükləyir.**

# Azərbaycanın üç yaxın qonşusunun ABŞ-la münasibəti sürətlə gərginləşir, ölkəmiz hələlik seçim qarşısında deyil...




Digər tərəfdən görünən budur ki, ABŞ və İran arasında mümkün savaşa elə Rusiya və Türkiyənin özü də biganə qalmayacaq. İndilikdə isə İranla ABŞ arasında münasibətlər gündən-günə gərginləşir. Vəziyyət artıq hərbi güc nümayiş etdirmək səviyyəsinə çatıb. Xatırladaq ki, Vaşinqton administrasiyası bombardmançı təyyarə daşıyan "Avraam Linkoln" hərbi gəmisini Fars körfəzinə göndərmək qərarına gəlib. Hərbi gəmi artıq Virciniya ştatının sahilindəki hərbi bazadan çıxaraq Fars körfəzinə istiqamət götürüb. ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Bolton bəyan edib ki, rəsmi Vaşinqton istənilən halda müttəfiqlərinin maraqlarını müdafiə edəcək.

Bununla yanaşı, qeyd edək ki, prezident Donald Tramp İran neftinin dünya bazarına çıxarılmasının qarşısını tamamilə almaq məqsədilə 6 ay müddətinə 7 ölkəyə neft almaq icazəsini aradan qaldırdıqdan sonra vəziyyət daha da gərginləşib. İran Silahlı Qüvvələrinin qərargah rəisi general Məhəmməd Baqeri artıq bəyan edib ki, İran dünya bazarına neft çıxara bilməsə, Hörmüz boğazını bağlayaraq Körfəz ölkələrinin də neft satışını dayandıracaq. Məsələnin mahiyyəti ondan ibarətdir ki, Hörmüz boğazı Fars körfəzindən Hind okeanına çıxışı təmin edir və Körfəz ölkələri dünya bazarına tankerlərlə nefti məhz bu yolla çıxarır. Məhz general Baqerinin bəyanatından sonra ABŞ hərbi gəmisini Fars körfəzinə göndərmək qərarına gəlib. Hər iki tərəfin rəsmiləri hərbi toqquşma arzusunda olmadıqlarını bildirsələr də, görünən odur ki, diplomatik dillə deyilən sözlər reallıqda özünü doğrultmur. Qeyd olunduğu kimi, ABŞ körfəzə hərbi gəmi göndərmək qərarına gəlib, cavab olaraq da İran yeni texnologiyalarla hazırlanmış silahlarını nümayiş etdirir. Tərəflər arasındakı gərginliyin artıq hərbi toqquşmaya kimi gedəcəyini proqnozlaşdıranların isə sayı artır.

Yuxarıda qeyd olunduğu kimi isə, prosesə region ölkələrindən Rusiya və Türkiyənin də seyrçi qalmayacağı gözlənilir. Türkiyə ilə bağlı məsələdə maraqlı vəziyyət ondan ibarətdir ki, Vaşinqtonun addımları qardaş ölkəni İranla, Rusiya ilə bir cəbhədə yer almağa sövq edir. S-400 raketdən müdafiə sistemi ilə bağlı məlum qalmaqaldan sonra ABŞ-ın Türkiyənin İrandan neft-qaz alışına qadağa qoymaq niyyəti Ankaraya başqa seçim yeri də qoymur. Xatırladaq ki, ABŞ-ın İran sanksiyaları ilə bağlı bəzi ölkələrə verdiyi imtiyazların möhləti mayın 2-də başa çatıb. Türkiyə isə bu qədər qısa müddətdə neft idxalını başqa mənbələr hesabına təmin edə bilməyəcəyini söyləyib. Buna çarə tapılmadığı təqdirdə, ABŞ-la Türkiyə arasında gərginlik arta bilər. Ankara Vaşinqtonu Tupras neft emalı zavodunun Tehrandan neft idxal etməsinə icazə verməyə çağırır. "Corporate Finance Services Ltd." şirkətinin idarə heyətinin üzvü Ozan Sakar İranın Türkiyənin enerji enthiyaclarının ödənilməsində mühüm rol oynadığını vurğulayıb: "Türkiyə elektrik enerjisinin 40 faizini idxallardan asılı olan təbii qaz vasitəsilə təmin edir. Benzin də həmçinin. Türkiyə təbii qazının 17 faizini İrandan idxal edir. Türkiyə bunu qəfləətən dəyişə bilməz. Bunlar uzun sürən proseslərdir". Lakin ABŞ İranın əsas gəlir mənbəyinə böyük zərbə endirmək ümidi ilə İranın neft ixraclarını kəsmək niyyətindədir. Sakar isə narahatdır ki, bunun nəticəsində İranda yaşanan qeyri-sabitlik regiona mənfi təsir göstərə bilər: "Hazırda regionda Türkiyənin qonşu ölkələri Suriya və İraqın hansı vəziyyətdə olduqları açıq-aydındır. İranın da regionda sabitliyin pozulması prosesinə cəlb olunması Türkiyə üçün ciddi təhlükəsizlik riskləri yarada bilər. Bu səbəblə də Türkiyə sabitliyin pozulmasına bu prosesə qarşı çıxaraq müdaxilə etmək istəyir". Lakin bu addım Türkiyə üçün iqtisadi baxımdan çətinliklər yarada bilər. Türkiyə lirəsi ABŞ dollarına qarşı dəyər itirməkdə davam edir. 2018-ci ildə 30 faizlik devalvasiyadan sonra lirə bu il də 10 faiz dəyər itirib. Bunun bəzi maliyyə səbəbləri olsa da, siyasi gərginlik də səbəblər arasındadır. Yuxarıda qeyd olunduğu kimi, Türkiyə onsuz da Rusiya ilə imzaladığı S-400 raketdən müdafiə sistemi ilə bağlı razılıqdan geri çəkilməkdən imtina etdiyinə görə Vaşinqtonla münaqişə yaşayır. Türkiyə ABŞ-ın sanksiyalarına əhəmiyyət verməyib İrandan neft idxal etməyə davam edərsə, hesab olunur ki, Ankara-Vaşinqton münasibətləri daha gərgin məcraya daxil olacaq.

Belə vəziyyətdən yararlanmağa çalışan Rusiya isə İran və Türkiyə ilə işbirliyini genişləndirib. həmin ölkələrlə ABŞ-a qarşı üçlü ittifaq yaratmağa çalışır. Məhz bu səbəbdən hesab edilir ki, ABŞ İrana qarşı hərbi əməliyyatlara başlasa, həmin üçlüyün də prosesə müdaxiləsi qaçılmaz olacaq. ABŞ-ın təyyarədaşıyan gəmisinin İran sahillərinə yola düşməsi isə Vaşinqtonun Tehrana qarşı planlarının ciddi olduğunu göstərir. İstənilən kiçik qığılcım böyük toqquşmanın başlanğıcı olacaq. Bu fonda hesab edilir ki, region ölkəsi olaraq, Azərbaycan artıq istənilən variantları gözdən keçirməli, mümkün təhlükələrdən sığortalana bilmək üçün indidən müvafiq addımlar atmalıdır. Belə görünür ki, böyük dövlətlərin qanlı savaşı qaçılmaz olacaq.

***Tahir TAĞIYEV***

**Ermənistanın Baş naziri Nikol Paşinyanın qərarı ilə ölkədə Milli Azlıqlar Şurası yaradılıb. Erməni mətbuatının yazdığına görə, sözügedən qərarda qeyd olunur ki, şura milli azlıq təşkilatlarının nümayəndələrindən ibarət olan məsləhət orqanıdır. Hər bir etnik qrupdan 2 nəfər yeni yaradılan qurumda təmsil olunacaq.**

# Paşinyan yeni dövlət qurumları yaratmaqda davam edir

## Seyid Camal Əzimbəyli: *"Ermənistanda milli azlıq var ki?"*



*"Bütün bunlar təbliğat xarakterlidir və əsaslı nəyəsə söykənmir"*

O da qeyd olunur ki, guya yaradılan bu qurum milli azlıqların hüquqlarının, milli kimliyinin qorunması və mədəniyyətlərinin inkişafı məqsədilə yaradılıb. Şurada Ermənistanın milli azlıqları ilə bağlı əsas məsələlər müzakirə ediləcək. Həmçinin, milli azlıqlara verilən dövlət yardımının paylanmasına dair müvafiq təkliflər hazırlanır.

Rəsmi məlumatlara görə, guya milli azlıqlar Ermənistan əhalisinin 2,5 faizini təşkil edir. Yezidilər Ermənistanda ən böyük etnik azlıq sayılır. Onların sayı 42 min nəfərdir. Rusların sayı təxminən 14 min nəfərdir. Yerdə qalanlar isə malakanlar, assuriyalılar, yunanlar və digərləridir.

Onu da qeyd edək ki, Paşinyan Baş nazir olandan sonra özü də bilmir nə edir. Bir ara islahatlar keçirdiyini bəyan etdi. Onun bu addımı sosial qarşıdurmalara səbəb oldu. Bir müddət əvvəl ölkədə demoqrafik vəziyyətlə bağlı qurum yaratdı. Guya ki, sözügedən qurum ölkədəki acınacaqlı demoqrafik vəziyyəti yoluna qoyacaq. Daha sonra kilsə-dövlət münasibətlərinin tənzimlənməsinə dair işçi qrupunun yaradılmasına qərar verib. İndi də milli azlıqlarla bağlı qurum yaradıb. Sanki Ermənistanda milli azlıqlar var. Əslində, ölkədən digər millətlər qovulub. Yeni etnik təmizləməyə məruz qalıblar. O baxımdan, Ermənistanda bununla bağlı yaradılan orqanı ekspertlər necə şərh edirlər?

**Məsələyə münasibət bildirən şərqşünas Seyid Camal Əzimbəylinin sözlərinə görə, Ermənistanda belə bir qurumun yaradılması sırf təbliğat məqsədi güdür:** "Əvvəla Ermənistan monoetnik dövlətdir. Bu ölkə poloetnik ölkə olsaydı, hardasa onların bu addımını başa düşmək olardı. Ölkə əhalisinin 99 faizindən çoxu ermənilərdir. Ermənistanda milli azlıq var ki? Ermənistandan yüz minlərlə soydaşımız 30 il əvvəl qovulub. Ruslar SSRİ çökəndən sonra bu ölkəni tərk etdilər. Yezidilər sıxışdırıldı. Həmçinin, digər etniklər ayrıseçkiliyə məruz qaldılar. O baxımdan da guya milli azlıqların ölkə əhalisinin 2,5 faizini təşkil etdiyi barədə deyilənlər tamamilə şişirdilmiş rəqəmlərdir və reallığı əks etdirmir. Bununla onlar Ermənistan barəsində belə bir rəy yaratmaq istəyirlər ki, guya bu ölkədə milli azlıqların hüququ qorunur. Ancaq, əslində, Ermənistanda elə bir etnik azlıq yoxdur. Bununla həm də Ermənistan rəhbərliyi istəyir ki, ölkə barədə tolerant imic formalaşdırsın. Bütün bunlar təbliğat xarakterlidir və əsaslı nəyəsə söykənmir. Həm də Paşinyan müxtəlif dövlət qurumları yaratmaqla ermənilərin başını aldadır. Guya ki, nəsə edir".

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# "Onların ordusu o qədər güclüdür ki, bir döyüş əməliyyatı ilə Ermənistanı yerlə yeksan edə bilər"




**Azərbaycanın işğalçı Ermənistan üzərində əzici hərbi üstünlüyünü artırması düşmən ölkədə böyük narahatlıqla qarşılanmaqda, eyni zamanda danışıqlar prosesində ölkəmizin daha güclü mövqe sahibi kimi çıxış etməsini təmin etməkdədir. Məhz bu fonda Azərbaycan həm hərbi, həm də diplomatik müstəvidə işğalçı Ermənistanı kifayət qədər sıxışdırmaqdadır.**

Ölkəmizin əldə etdiyi bu üstünlüklər beynəlxalq miqyasda da açıq etiraf edilməkdə, Ermənistana Dağlıq Qarabağ münaqişəsini dinc müstəvidə həll etməyin vacibliyinə dair ünvanlanan tövsiyələr artmaqdadır.

Açıq şəkildə vurğulanır ki, İrəvan məsələnin dinc müstəvidə çözümü üçün müvafiq addımlar atmasa, Ermənistanın özündən belə əsər-əlamət qalması böyük sual altına düşəcək. Bu xüsusda ukraynalı hərbi ekspert Oleq Jdanovun "Obozrevatel" nəşrinə müsahibəsində səsləndirdiyi fikirlər xüsusi diqqət cəlb edir. Ekspert diqqəti ona yönəldir ki, Ukrayna ərazi bütövlüyünü bərpa etmək üçün Azərbaycanın hazırlıq təcrübəsindən faydalanmalıdır. Oleq Jdanov bildirir ki, ötən dövr ərzində Azərbaycan ordusunu əhəmiyyətli dərəcədə gücləndirib və bu da ona danışıqlar prosesində daha güclü mövqe sahibi olmağa imkan verib. O qeyd deir ki, Ukrayna da Azərbaycan kimi öz ərazi bütövlüyünü hərbi yolla bərpa etməyə hazır olmalıdır: "Ukrayna öz ərazilərini hərbi yolla geri qaytarmağa hazır olmalıdır və düzgün dövlət yanaşması olarsa, bir il ərzində ən azı Donbasdakı qoşun qruplaşmasını modernizə edib döyüş vəzifələrinin yerinə yetirilməsinə hazırlaya bilər. Əslində ordu əraziləri geri qaytarmağa Minsk razılaşmasından dərhal sonra hazırlaşmalıydı. Çünki atəşkəs Ukraynanın xeyrinə deyil. Belə münaqişələrdə həmişə iki yol olur: siyasi yol və hərbi yol. Yaxud onların kombinasiyası, yəni güc tətbiq etmə ilə danışıqlara məcbur etmə. Lakin istənilən halda, prezident danışıqlar prosesinə çıxırsa və bilirsə ki, arxasında məsələni minimal itkilərlə həll edə biləcək güclü ordu var, o zaman danışıqlar prosesi güc nöqteyi-nəzərindən gedir. Prezident başa düşür ki, üstünlük onun tərəfindədir və özünü daha inamlı hiss edir. Məsələn, Azərbaycan. Onlar gündəmdə birinci məsələ kimi Dağlıq Qarabağda hərbi əməliyyatları qoyurlar. Onların ordusu o dərəcədə hazırlıqlıdır ki, bir döyüş əməliyyatı ilə bütün Ermənistanı yerlə bir edə bilərlər. Bu da qüvvələr bölgüsünü dəyişir, onların danışıqlar prosesindəki mövqeyini dəyişir".

Ekspertin fikirlərindən də göründüyü kimi, Azərbaycan hərbi müstəvidə əldə etdiyi üstünlüklər sayəsində işğalçı Ermənistanı kifayət qədər təzyiq altında saxlaya bilir. Bunun əvəzində isə Ermənistan getdikcə daha zəif duruma düşür. Ermənistanın Respublika Partiyasının mətbuat katibi Eduard Şarmazanov da bunu açıq şəkildə etiraf edir. Onun sözlərinə görə, Azərbaycan hərbi, diplomatik qüdrətini artırdığı halda, Nikol Paşinyanın rəhbərliyi altında hökumət bir sıra təhlükəli addımlara qarşı cinayət tolerantlığı nümayiş etdirir: "Son bir il ərzində Ermənistanda böyük sürətlə xəyanət, transgenderlik və həmcinsliliyin total şəkildə təbliğatı aparılır. Paşinyanın rəhbərliyi altında hökumət bu təhlükəli əlamətlərə qarşı cinayət tolerantlığı nümayiş etdirir. Homoseksuallar polislə toqquşdu, hakimiyyət susdu, transseksual erməni parlamentində təbliğat apardı, hökumət bunu da qınamadı. İndi də kitab təqdimatları təşkil edirlər və 3-6 yaş arası uşaqları hədəfləyirlər. Hökumətdəkilərin bunu qınamaması azmış kimi, biz qınayanları da siyasi saxtakarlar adlandırırlar. Onlar kimi siyasi transgender olmaqdansa, siyasi saxtakarlıqda ittiham edilmək daha yaxşıdır". Şarmazanov qeyd edib ki, belə vəziyyət cəmiyyətə mənfi təsir edərək onu ruhdan salır və bu da ölkəni fəlakətə sürükləyir: "Bu gedişlə biz çağırışlara cavab verə, Ermənistanı məhvdən qoruya bilmərik. Biz zəifləyirik, bunu Azərbaycan diqqətdən qaçırmır, mövqelərini daha da gücləndirir".

Eyni mövqeni "Milli Gündəm" partiyasının təsisçi qrupunun katibi Ara Qasparyan da bölüşür. Onun sözlərinə görə, Azərbaycanın güclənməsi, Ermənistanın zəifləməsi fonunda müharibə ehtimalı getdikcə artır: "Amma bunlara rəğmən, hökumət erməni ictimaiyyətini müharibəyə hazırlaya bilmir. Azərbaycanda isə əks proses baş verir. Xatırladım ki, Azərbaycanın hərbi xərcləri 2013-2014-cü illərdə pik nöqtəsinə çatmaqla 3.7 mlrd dollar təşkil etsə də, bundan sonra hərbi xərclər tədricən azaldılıb. Buna baxmayaraq, müharibə ehtimalı getdikcə artır, çünki Azərbaycan silahlanmanı başa çatdırdığını bildirir. Qarabağ məsələsini güc yolu ilə həll etməyə hazırlaşır. Bizdə isə buna hələ də lazımi diqqət yetirilmir. Ona görə də 2016-cı ilin aprel sürprizlərini yenə yaşaya bilərik".

Bütün bunlar işğalçı tərəfin ordumuzun gücündən əhəmiyyətli dərəcədə çəkindiyini aydın nümayiş etdirir. Həqiqətən də ölkəmizin ərazi bütövlüyünün bərpası məsələsində əsas güc məhz Azərbaycan ordusudur. Ordumuzun 2016-cı ilin şanlı aprel döyüşlərindən sonra Günnüt zəfəri də bunun təsdiqidir və elə o vaxtdan bəri ermənilərdə ciddi narahatlıq yaradıb. Ordunun inkişafına, onun təchizatının yüksəlməsinə göstərilən diqqət artıq öz nəticələrini verir. Bakı bu sahədə mövqeyini onunla əsaslandırır ki, müharibə aparan ölkənin güclü ordusunun olması şərtdir. Məhz bu fonda indi ordumuz qısa müddətdə işğal altında olan ərazilərimizi erməni terrorçularından təmizləməyə qadirdir. Ölkəmizin davamlı olaraq aldığı ən müasir hərbi texnikalar da düşmən üzərində üstünlüyümüzü əhəmiyyətli dərəcədə yüksəldir. Son illər ərzində ən müasir texnika və silahlar alınır, eyni zamanda ölkənin özünün müdafiə sənayesinin sürətli inkişafı artıq xarici ölkələrin silah-sursat asılılığından azad olunmasını şərtləndirir. Bu gün Azərbaycan MDB məkanında dörd ölkədən biridir ki, onun müasir tələblərə cavab verən müdafiə sənayesi mövcuddur. O da xüsusi qürurverici haldır ki, bu gün ölkəmiz ən müasir silahların ixracatçısıdır. Bütün bunlar həm də onun təsdiqidir ki, güclü Azərbaycan ordusu istənilən döyüş tapşırığını, hücum əməliyyatını yerinə yetirməyə qadirdir. Məhz qeyd edilən amillər də artıq Ermənistanda ciddi təşviş yaradır. Bunu bu günlərdə Ermənistanın keçmiş müdafiə naziri Vigen Sarkisyan da açıq şəkildə etiraf edib. O bu məsələ barədə danışarkən Azərbaycan ordusunun gücünü və böyüklüyünü diqqətə çatdırıb: "Vəziyyətdən asılı olmayaraq, erməni tərəfi Azərbaycanın hərəkətlərinə cavab verməlidir. Azərbaycan ordusu çox güclü, təhlükəli və qüdrətlidir. Azərbaycan ordusu Ermənistan üçün, həyatımız və müstəqilliyimiz üçün təhlükədir. Biz hər zaman hazır olmalıyıq. 2016-cı ilin aprel ayından dərs çıxarmalıyıq". Beynəlxalq miqyasda da ordumuza verilən qiymət Vigen Sarkisyanın və digər ermənilərin narahatlıqlarının əbəs olmadığını göstərir. Belə ki, son illərdə güclü hərbi potensialın təkmilləşdirilməsi nəticəsində artıq Azərbaycan ordusunun adı dünya miqyasında güclülər sırasına daxil edilməkdədir. Beynəlxalq hərbi ekspertlərin də etiraf etdiyi kimi, müdafiə qüdrəti artan Azərbaycanın reytinqinin yüksək səviyyədə olması bu istiqamətdə atılan addımların real təzahürüdür. ABŞ-ın "Global Firepower" araşdırma mərkəzinin son hesabatı da bunların təsdiqidir. Xatırladaq ki, "Global Firepower" bu günlərdə 2019-cu il üçün dünya orduları reytinqini dərc edib. Portal analitiklərinin hesablamalarına görə, Azərbaycan ordusu 137 ölkə arasında 52-ci yeri, Ermənistan ordusu 96-cı yeri tutur. Elə bu beynəlxalq qiymətləndirmənin özü də güc baxımından Azərbaycanın hansı üstünlüklərə malik olduğunu açıq şəkildə nümayiş etdirir. Düşmən özü də görür ki, Ermənistanın dağınıq ordusu yüksək mənəvi-psixoloji durumu, təchizatı və nizam-intizamı ilə fərqlənən Azərbaycan əsgərinin qarşısında dayana bilməz. Məhz belə bir vaxtda Ermənistan mediası ordularında ciddi nöqsan və böhran barədə yeni maraqlı məlumatlar yaymaqdadır. Düşmən ölkənin mediası Azərbaycanın işğal edilmiş ərazilərində yerləşdirilən erməni hərbi birləşmələrinin əsgərlərinin müəmmalı şəkildə güllə yarası aldığını, yaxud yoxa çıxdıqlarını yazır. "Lragir" saytının məlumatına görə, bir həftə əvvəl 32 yaşlı gizir Arqişti Stepxanyan başından güllə yarası alıb. Mayın 4-də isə 1998-ci il təvəllüdlü əsgər Aqanik Zorolyan yaralanıb: "Bununla yanaşı, 1-3 may tarixində Azərbaycan və Türkiyə Silahlı Qüvvələri "Mustafa Kamal Atatürk-2019" təlimləri keçirdilər. Cəbhədə baş verənlər fonunda bu təlimlər diqqət çəkir. Azərbaycan müttəfiqi ilə birgə açıq mesaj verir, bizim ordumuzda isə, buna cavab vermək əvəzinə, daha ciddi problemlər yaşanır". Sayt erməni əsgərlərin yaralanması və ya yoxa çıxmasının digər versiyası kimi ordu daxilindəki çəkişmələri də göstərir. Belə ki, erməni zabitlər, yaxud əsgərlər bir-birilə qarşıdurma yaşayır, bəzən bir-birini güllələyərək, günahkar kimi Azərbaycan tərəfini göstərirlər. Bu versiyanın həmişə mövcud olduğuna diqqət çəkən erməni şərhçi Karpis Paşoyan isə son dövrlər Azərbaycan ordusunun Dağlıq Qarabağ danışıqları fonunda aktivləşdiyini bildirib:

"Faktların analizi göstərir ki, Azərbaycan danışıqlara paralel olaraq, cəbhədə vəziyyəti ələ alır. Hazırda baş verənlər "aprel müharibəsi"ndən önəki vəziyyəti xatırladır. Bakının addımları İrəvanın manevr imkanlarını daraldır".

Bütün bunlar onu deməyə əsas verir ki, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın, digər sahələrlə yanaşı, hərbi müstəvidə də mövqeləri kifayət qədər güclüdür. Məhz bu durumda Azərbaycan işğal altındakı ərazilərini güc yolu ilə azad etməyə hazır olduğunu ən yüksək səviyyədə bəyan edib. İndi seçim erməni tərəfindədir: düşmən ya zəbt etdiyi ərazilərin dinc yolla azad olunmasına başlamalıdır, ya da qüdrətli Azərbaycan ordusunun dağıdıcı zərbələrinə hazır olmalıdır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Qardaş Türkiyədə İstanbul seçki gərginliyi yenidən başladı, Avropa komissarları hesabat istəyir

**Məlum olduğu kimi, Türkiyənin Yüksək Seçki Komissiyası (YSK) İstanbulda təkrar bələdiyyə seçkisinin keçirilib-keçirilməyəcəyi ilə bağlı son qərarını verib. Uzun araşdırmalardan sonra YSK İstanbul Böyük Şəhər Bələdiyyə başqanı seçkisinin təkrarlanmasını qərara alıb. YSK üzvlərinin 7-si qərarın lehinə, 4-ü əleyhinə səs verib.**




Qərara görə, İstanbul Böyük Şəhər Bələdiyyə başqanı seçkilərinin nəticələri ləğv edilib. Yeni seçkilər 23 iyun tarixinə - bazar gününə təyin olunub. Qeyd edək ki, YSK mart ayının 31-də keçirilmiş bələdiyyə seçkilərində İstanbulda qanun pozuntularının olması ilə bağlı AKP-nin şikayəti əsasında belə qərar verib. Hakim Ədalət və İnkişaf Partiyası (AKP) və onun Milliyyətçi Hərəkat Partiyasından (MHP) olan müttəfiqləri Türkiyənin Yüksək Seçki Komissiyasına şikayət ərizəsi təqdim edib. Onlar İstanbulda seçki pozuntularının olduğunu iddia edərək nəticələrin ləğv olunmasını, seçkinin yenidən keçirilməsini tələb ediblər.

İstanbul Böyük Şəhər Bələdiyyəsi sədrliyi uğrunda ən çox səsi Cümhuriyyət Xalq Partiyasının (CHP) namizədi Əkrəm İmamoğlu və hakim Ədalət və İnkişaf Partiyasının (AKP) namizədi Binəli Yıldırım toplamışdı. YSK Əkrəm İmamoğlunun 26 min səs fərqi ilə qalib gəldiyini açıqladıqdan sonra AKP seçkinin nəticələrinə etiraz etmiş və bir çox rayonda səslərin yenidən sayılmasına qərar verilmişdi.. Etibarsız hesab edilmiş yüz minlərlə səs, habelə bəzi məntəqələrdə bütün səslər həftələrlə yenidən sayılmışdı. Aprelin 17-də səslərin təkrar sayılması prosesi başa çatıb və səs fərqi 12 min nəfərədək düşmüşdü. Bu da ortada İmamoğlunun xeyrinə saxtakarlığın olduğu iddialarını daha da artırmışdı. AKP bu iddialarını təsdiqləyən sənədləri YSK-ya təqdim edərək, nəticələrin bütünlüklə ləğvini tələb etmişdi. YSK uzun araşdırmalardan sonra İstanbul Böyük Şəhər Bələdiyyə başqanı seçkilərində saxtakarlığa yol verildiyinin təsbit olunduğunu bəyan edərək, seçkinin təkrar keçirilməsinə qərar verdi. Qeyd edək ki, Türkiyə prokurorları da İstanbulda keçirilən yerli seçkilər zamanı qanun pozuntuları iddiası ilə 32 iş üzrə istintaqa başlayıb və 100-dən çox seçki məntəqəsinin səlahiyyətlilərini şübhəli qismində sorğu-sual ediblər.

Martın 31-də keçirilmiş yerli seçkilərdə İstanbul Böyük Şəhər Bələdiyyə başqanı seçilən Əkrəm İmamoğlu YSK-nın nəticələri ləğv edib yeni seçkilər təyin etməsindən sonra Beylikdüzü rayonunda on minlərlə tərəfdarının qarşısına çıxıb. İmamoğlu çıxışını Ramazan ayının ilk günü ilə bağlı mesajlar verməklə başlayıb. Bildirib ki, Ramazan ayı birləşmə, qucaqlaşma, qul haqqı yeməmə ayıdır. "Biz bu ölkədə qul haqqı yeyilməsini istəmirik" - o bildirib.

İmamoğlu YSK-nı təzyiqlərə boyun əydiyi üçün qınayıb. O deyib ki, İstanbul seçkilərinin nəticələrinin anasının südü kimi halal olduğuna əmindir: "Bu millət bizi seçib. İndi sizlərə söz verirəm. Yolumuz uzun, həyəcanımız yüksək, gəncliyimiz var. Biz ədalətə susamış, demokratiyaya inanan türk gənciyik. Bu millətin önünü heç kim kəsə bilməz". Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ədalət və İnkişaf Partiyasının (AKP) parlamentdəki fraksiyasının genişləndirilmiş toplantısında yaranmış vəziyyətə münasibət bildirib: "Sadəcə ləğv edilən etibarsız bülletenlərin sayılması zamanı fərqin azalması bizi şübhələndirdi. Bununla İstanbul Böyük Şəhər Bələdiyyəsi sədrliyinə iyunun 23-də təkrar seçkilərin keçirilməsi barədə qərar qəbul edilib. Bu müddətdə fəaliyyət göstərərək seçkini qazanmağa çalışacağıq". Ərdoğan 15 min seçicinin iradəsinin qəsb edilməsinin yolverilməz olduğunu vurğulayıb.

Xatırladaq ki, Avropa Birliyi Türkiyədən yaranmış vəziyyətlə bağlı, yəni İstanbuldakı seçki nəticələrinin ləğvinə dair tutarlı sübutların təqdim olunmasını tələb edib. Bir günün içərisində lirənin kursunda kəskin ucuzlaşma qeydə alınıb. YSK-nın qərarı ?lan olunan gün əhali İstanbul küçələrinə axışıb və etirazını ifadə edib. Bu vəziyyət Türkiyənin gələcəyi üçün nə vəd edir?

Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə bildirdi ki, hadisələrin bu axarla cərəyan etməsi Türkiyə üçün yaxşı nəsə vəd etmir: " Mən bir az əvvəl Türkiyə televiziyasında gedən bir verilişi izlədim. Münasibət çox mənfidir. Hətta bunu Türkiyədəki demokratiyaya, dövlətin imicinə vurulan ən böyük zərbə kimi dəyərləndirirlər. YSK-nın son qərarını davamı gələ biləcək zəlzələ ilə eyniləşdirirlər. Artıq Türkiyənin çox tanınmış sənət adamları, elm xadimləri, idmançıları sosial şəbəkələrdə hamını susmamağa çağırırlar. İmamoğlunun paylaşdığı videolara qısa zaman ərzində milyonlarla baxış olur. Orada gedən müzakirələrdən hiss edilir ki, hakimiyyət bu addımını əsaslandırmaqda çətinlik çəkəcək. Mən də hesab edirəm ki, bununla ciddi qanun pozuntusuna yol verilib. Buna qədər YSK-nın 11 üzvü olub. 4-5 ay ərzində onlardan 4-nü ağır ittihamlarla həbs ediblər. Nəticədə YSK-nın tərkibi fərqli düşünənlərdən seyrəldilib. Hətta yerdə qalan 7 nəfərdən belə bu qərarı güclə ala biliblər. Bu 7 nəfərdən cəmi 4-ü səs verib. Onlardan bir nəfər belə səsvermədən imtina etsəydi, alınmayacaqdı. Elə YSK-dakı proseslər ora basqının olduğunu göstərir. Hesab edirəm ki, Türkiyəyə güclü beynəlxalq basqı olacaq və bu proses təkrar seçkidə İmamoğlunun səs fazizini azı bir milyon nəfərə kimi artıracaq. Mənə elə gəlir ki, ölkənin mənafeyi naminə bu addıma gedilməməliydi".

***Məhəmmədəli QƏRİBLİ***

# Ermənistan əhalisinin 8 min nəfər azaldığı rəsmi təsdiqlənib

**Ermənistan əhalsinin sayı ilbəil azalır. Əvvəllər bu barədə məlumatlar gizlədilsə də, əhalinin ölkəni kütləvi tərk etdiyi rəsmən təsdiqlənməsə də, artıq mövcud hakimiyyət faktı ört-basdır edə bilmir.**

***Aytəkin Kamranqızı:*** *"Ermənistanda baş verən sosial-iqtisadi, siyasi böhranlar, yoxsulluq, işsizlik əhalidə bu ölkənin gələcəyinə inamı kəskin şəkildə azaldıb"*

***Vaqif Abışov:*** *"Bu ölkədə həqiqətən də vəziyyət acınacaqlıdır"*



Ermənistan mətbuatının yaydığı məlumata görə, bu ölkədə əhalinin siyahıya alınması prosesi keçirilib. Bundan əvvəl əhalinin sonuncu siyahıya alınması 8 il bundan öncə, 2011-ci ildə baş verib. Ermənistanın Milli Statistika Komitəsinin yaydığı rəsmi məlumata görə, 2019-cu ilin 1 aprel tarixində keçirilən siyahıyaalmaya əsasən, əhali sayı 2 milyon 962.1 nəfər təşkil edir. Bu siyahıyaalmadan maraqlı nəticə meydana çıxır. Bu qurum tərəfindən 2018-ci illə 2019-cu il arasında müqayisə aparılıb və Ermənistan əhalisinin son bir ildə 7, 8 min nəfər azaldığı ortaya çıxıb. Bu ilin ilk 4 ayında isə əhalinin sayı 3,2 min nəfər azalıb. Ermənistanda şəhər əhalisinin sayı 1 aprel tarixinə qədər 1 milyon 893 min nəfər təşkil edib. Burada 1,1 min nəfər azalma müşahidə olunur. Kənd əhalisinin sayının azalması isə daha qabarıq formada özünü göstərir. Belə ki, kənd əhalisi 6700 nəfər azalıb. Ermənistanın Milli Statistika Komitəsinin yaydığı digər məlumata görə isə ilin I rübündə 8 min 42 min uşaq dünyaya gəlib. Bu da ötənilki göstərici ilə müqayisdə 3,1 faiz azdır.

Bu gün Ermənistanda demoqrafik vəziyyətin həddindən artıq acınacaqlı olduğunu Ermənistanın Milli Statistika Komitəsi özü rəsmən təsdiqləyir.

Son 1 ildə Ermənistan əhalisinin 7, 8 min nəfər azalmasını şərh edən demoqrafların bildirdiyinə görə, Ermənistanın boşalması prosesi illərdir davam edir. Demoqrafların və sosioloqların bildirdiyinə görə, bu gün əsasən də Ermənistan kəndlərinin boşalması prosesi sürətlə gedir. Əhalinin ölkəni tərk etməsi səbəblərinin yalnız sosial-iqtisadi durumla bağlı olmadığını deyən mütəxəssislər hesab edirlər ki, burada siyasi amillər də özünü açıq şəkildə büruzə verir.

Sosioloq Aytəkin Kamranqızının bildirdiyinə görə, Ermənistan cəmiyyətində stabillik çoxdan pozulub və bunu bərpa etmək üçün mövcud hökumət addımlar atmaq əvəzinə, özlərindən əvvəl hakimiyyətdə olanları təkrar edir. Bu gün Ermənistanın ən yoxsul ölkələr sırasında olduğunu deyən sosioloq hesab edir ki, işsizlik, çörəksizlik problemi ilə üzləşən, normal təhsil almaq imkanlarından məhrum olan insanlar Ermənistanda yaşamaqdan imtina edirlər. "Ermənistan həddindən artıq yoxsul bir ölkədir. Hesablamalara görə, Ermənistanda yoxsulluq səviyyəsi 40% təşkil edir. Bu da ölkə əhalisinin sosial-maddi vəziyyətinin aşağı səviyyədə olmasının əsas göstəricisidir. Sosioloji qənaətlərimiz belədir ki, Ermənistan müstəqillik əldə etdikdən sonra burada iqtisadi və sosial problemlərin daha da çoxaldığı müşahidə edilməkdədir. Bu problemlər bu günə qədər öz həllini tapmayıb. Bu amil də Ermənistanda təhlükəli sayılan demoqrafik problemi orataya çıxarıb. Bu gün Ermənistanda ciddi demoqrafik problemlər mövcuddur və ölkə əhalisi kütləvi olaraq buradan köçüb gedir. Fakt budur ki, Ermənistan əhalisinin böyük əksəriyyəti sürətlə ölkəni tərk edib başqa ölkələrə üz tutur. Mövcud hakimiyyət təmsilçiləri xalqın rifah halının düzəlməsi istiqamətində heç bir addım atmır, onlar da özlərindən əvvəlkilərin yolu ilə gedirlər. Ermənistanda baş verən sosial-iqtisadi, siyasi böhranlar, yoxsulluq, işsizlik əhalidə bu ölkənin gələcəyinə inamı kəskin şəkildə azaldıb, bu da onların ölkəni tərk etməsinə səbəb olur. Hətta yadımdadır ki, Ermənistanda əhali sayının günü-gündən azalması BMT-nin sənədlərində də əks olunmuşdu" - deyə ekspert qeyd etdi.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Vaqif Abışov hesab edir ki, Ermənistanda son bir ildə əhali sayının 7, 8 min nəfər azalmasının müxtəlif səbəbləri var. O hesab edir ki, sabitliyin olmadığı Ermənistanda əhalinin ölkəni tərk etməsi təbii görünür. "Ümumiyyətlə, demoqrafik vəziyyət heç bir vaxt stabil olmur. İnsanlar müxtəlif səbəblərdən miqrasiya edirlər. Ermənistandakı vəziyyətə gəlincə, deyim ki, bu əsasən ölkədəki siyasi vəziyyətlə, o ölkənin iqtisadi-sosial gücünün hədsiz dərəcədə zəif olması ilə bağlıdır. Bu ölkədə həqiqətən də vəziyyət acınacaqlıdır. Bir vaxtlar Ermənistan hökuməti bu ölkənin boşaldığı faktını təsdiqləmirdi, əksinə, ortaya yalançı, şişirdilmiş rəqəmlər çıxarırdılar. İndi isə 1 ildə 7, 8 min nəfərin ölkəni tərk etdiyini gizlədə bilmirlər, say o qədər çoxdur ki, bunu ört-basdır etmək mümkün deyil. Bu gün Ermənistan əhalisi sabitliyin nə olduğunu bilmir, bu ölkədə təşviş, qorxu amili çox güclüdür. Ermənistandan köçənlərin bir qismi hesab edir ki, Azərbaycan gec-tez Ermənistan tərəfindən işğal edilən torpaqlarını geri qaytaracaq, bu da ölkənin daha pis vəziyyətə düşməsinə səbəb olacaq. Odur ki, əhalinin bir qismi bundan əndişələnib ölkədən köçüb gedir. Bir qismi isə əsasən işsizlik ucbatından, bir parça çörək qazanmaq üçün xarici ölkələrə üz tutur. Bilirsiniz, hazırda Ermənistan əhalisi hər an hakimiyyət dəyişikliyinin baş verəcəyini gözləyir. Yadınızdadırsa, bir neçə il əvvəl Ermənistan parlamenti güllələnmişdi. Bunun xofu da hələ camaatın canından çıxmayıb. Ermənistanda hökm sürən qeyri-sabitlik, siyasi böhran, işsizlik, yoxsulluq əhalinin 1 ildə 7, 8 min nəfər azalmasına gətirib çıxarıb".

V.Abışovun sözlərinə görə, 7,8 min nəfərin içində ən çox kəndlərdən köçənlərin olması onu göstərir ki, Ermənistan kəndləri tamamilə boşalır. O, həmçinin, qeyd etdi ki, miqrasiya edənlər sırasında gənclərin üstünlük təşkil etməsi həm işsizlik problemi ilə bağlıdır, həm də bu ölkədəki acınacaqlı siyasi vəziyyətlə.

***İradə SARIYEVA***

**Bakı Ağır Cinayətlər Məhkəməsində Beynəlxalq Bankın keçmiş rəhbəri Cahangir Hacıyev və onunla birlikdə mühakimə olunan 21 nəfərin barəsində cinayət işi üzrə prosesdə maraqlı bir fakt açıqlanıb. Məlum olub ki, kosmosa uçan ilk müsəlman qadına Cahangir Hacıyevin kadrları nə az, nə çox, düz 12 milyon dollar kredit veriblər.**

# Cahangir Hacıyev kosmonavt qadına 12 milyon dolları necə köçürüb?

## *Fikrət Yusifov: "Əgər o xanımın həqiqətən bu işdə əli varsa..."*



*"Bəlkə də onun adından istifadə edib, krediti rəsmiləşdirib öz adlarına götürüblər"*

Təqsirləndirilənlərdən biri - F.Abdullayev kosmosa turist kimi uçan ilk müsəlman qadın olan Ənuşə Ənsarinin bankdan kredit götürməsi ilə də bağlı maraqlı açıqlama verib.

Sitat: "Ənuşə Ənsari ABŞ-da "Ağıllı ev" layihəsi üçün bankdan 12 milyon dollar kredit götürmüşdü. Sonradan kreditin faizi ödənilsə də, əsas borc qalmışdı. Mən işdən ayrılandan sonra bu barədə məlumatım yoxdur".

Ənuşə Ənsari 2006-cı ildə kosmos turizmi çərçivəsində kosmosa çıxan ilk müsəlman qadındır. İranın Məşhəd şəhərində anadan olub, sonradan ata-anası ilə birgə Tehranda yaşayıb. 1984-cü ildə isə valideynləri istedadlı övladlarına daha mükəmməl təhsil verə bilmək üçün ABŞ-a köçüblər. Burada informatika və elektronika üzrə təhsil alan Ənuşə Corc Vaşinqton Universitetində magistr dərəcəsi alıb. Sonra ABŞ-ın məşhur rabitə və informasiya kompaniyası olan MCİ-də işləyib. Burada tanış olduğu Həmid Ənsari ilə ailə qurur. 1993-cü ildə Ənuşə, Həmid və onun qardaşı "Əmir Telecom Technologies" kompaniyasını qurublar. Artıq 2006-cı ildə Ənuşənin başında durduğu investisiya firması Rusiyanın federal kosmik agentliyi ilə kommersiya işləri üçün istifadə etmək məqsədilə suborbital kosmik gəmilər donanması yaratmaq barədə saziş bağlayıb. Bundan sonra Ənuşə artıq kosmosa uçuş barədə düşünüb.

O, 4-cü turist kosmonavt olacaq yapon biznesmeni Daysuke Enomoto ilə alternativ olur. Və sonda tibbi göstəricilərinə əsasən yapon iş adamına uçmaq qadağan edilir və Ənuşə kosmik heyətin siyahısına salınır.

Onun adı 750 milyon dollarlıq biznes layihələrdə keçir. Barəsində xeyli xoş söz yazılır. Çox maraqlıdır, kifayət qədər maliyyə imkanlarına sahib olan qadın niyə kredit götürmək qərarına gəlib, özü də məhz Beynəlxlaq Bankdan? Hətta götürübsə belə, niyə dünyada kifayət qədər müsbət reputasiyaya malik olan qadın həmin pulu qaytarmayıb? Ola bilərmi ki, həmin məbləğ onun adına yazılsın, özünün bundan xəbəri olmasın?

**Sabiq maliyyə naziri Fikrət Yüsifov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bunun daha dəqiq cavabını hüquq-mühafizə orqanları deyə bilər:** "Çünki daha incə detallar istintaqa məlumdur. İstinaq bitibsə, iş məhkəmədədirsə, deməli, maraqlı vəziyyət yaranıb. Mən detallarla bağlı danışsam, münəccimlik etmiş olaram. Ancaq nəzərinizə çatdırım ki, Beynəlxalq Bank vasitəsilə misli görünməyən cinayətlər edilib. Azərbaycanın pulları müxtəlif fırıldaq yollarla xaricə çıxarılıb. Ola bilər ki, həmin xanımın adı ilə də belə fırıldaq törədilib. Bəlkə də heç həmin kosmonavtın bundan xəbəri yoxdur. Bütün cinayətə gedən şəbəkədən nə desən gözləmək olar. Əgər xanımın dünya maliyyə dairələrində müsbət imici varsa, o belə addım atmaz. Kifayət qədər maliyyə aktivləri olan xanım niyə adını biabır etsin ki? Bəlkə də onun adından istifadə edib, krediti rəsmiləşdirib öz adlarına götürüblər. Əgər o xanımın həqiqətən bu işdə əli varsa, onda mütləq izahatı olmalıdır. Ən azından, o çıxıb açıqlama verməlidir. Səs çıxmırsa, deməli, xəbəri yoxdur. Yaxşı olar ki, onun özündən bu məsələyə münasibət öyrənilsin. Beynəlxalq Bankın keçmiş rəhbərliyindən isə nə desən gözləyirəm. Heç bir perspektivi olmayan layihəyə bilə-bilə 1 milyard ayırıblarsa, deməli, bunu da edə bilərlər".

***Məhəmmədəli QƏRİBLİ***

**Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidmətinin məlumatına görə, bəzi kütləvi informasiya vasitələrində Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin sabiq əməkdaşı Hüseynov Emin Bəybala oğlunun qeyri-qanuni şəkildə işə qəbul edilməsi və əmək məzuniyyətində olduğu dövrdə Türkiyə Respublikasının Antalya vilayətində ölməsinin sifarişlə təşkil edilməsi barədə həqiqətə uyğun olmayan məlumatlar dərc edilib.**

# Korrupsiyaya qarşı... Baş İdarəsinin sabiq əməkdaşının Antalyada dünyasını dəyişməsi ilə bağlı təfsilatlı məlumat yayıldı...



Həmin informasiyalar Baş Prokurorluq tərəfindən qəti şəkildə təkzib olunmaqla bildirilir ki, mərhum Emin Hüseynov "Dövlət qulluğu haqqında" Qanuna müvafiq olaraq Azərbaycan Respublikası Baş prokurorunun müvafiq əmri ilə 2015-ci ildə qanunvericiliyə tam uyğun şəkildə həyata keçirilmiş işə qəbul proseduru nəticəsində prokurorluq orqanlarında dövlət qulluğuna qəbul edilərək Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin məsləhətçisi vəzifəsinə təyin edilib.

Emin Hüseynov məzuniyyət hüququndan istifadə edərək, ona 1 avqust 2017-ci il tarixli əmrlə 30 gün müddətinə əmək məzuniyyəti verilib, məzuniyyətdə olarkən vəfat etməsi ilə əlaqədar olaraq 26 sentyabr 2017-ci il tarixli əmrlə qanunvericiliyin tələbinə əsasən barəsində dövlət qulluğuna xitam verilib.

E.Hüseynovun ölümü ilə əlaqədar Türkiyə Respublikasında başlanmış cinayət işi üzrə hüquqi yardım göstərilməsinə dair həmin dövlətin Ədliyyə Nazirliyindən Baş Prokurorluğa daxil olmuş beynəlxalq tapşırıqda mərhumun Antalya şəhərində "Lara Delphin Be Grand" otelinin idman zalında idmanla məşğul olduğu zaman yıxılaraq huşunu itirdiyi, bir neçə gün xəstəxanada stasionar şəraitdə müalicə olunmasına baxmayaraq öldüyü qeyd olunur. Tapşırıqda bununla əlaqədar mərhumun meyitinin ekshumasiya edilməsi (meyitin və ya onun qalıqlarının qəbirdən çıxarılmaqla müayinə edilməsi) və zəhərlənmə əlamətlərinin olub-olmamasının müəyyən edilməsi xahiş edilsə də, ölmüş şəxsin qanuni nümayəndəsi qismində çıxış edən mərhumun atası Hüseynov Bəybala Qaraş oğlu Baş Prokurorluğa ərizə ilə müraciət edərək bu istintaq hərəkətinin keçirilməsinə razılıq verməyib.

Buna baxmayaraq, Baş Prokurorluq tərəfindən Türkiyə Respublikasında başlanmış cinayət işinin istintaqına milli və beynəlxalq hüquq çərçivəsində hərtərəfli köməklik göstərilib.

Belə ki, istintaq üçün əhəmiyyət kəsb edən Azərbaycan Respublikası vətəndaşlarının dindirilməsi, habelə E.Hüseynovun istifadəsində olmuş mobil telefondan aparılmış danışıqların verilməsi barədə qonşu dövlətin aidiyyəti qurumundan daxil olmuş əlavə vəsatət tam şəkildə icra olunaraq, əldə edilmiş məlumatlar aidiyyəti üzrə təqdim edilib. Eyni zamanda, sorğu edən dövlətə müraciətlər və xatırlatma məktubları göndərilərək, istintaq konkret nəticəyə gələ bilmədiyi təqdirdə təkrar araşdırma aparılması və nəticəsi barədə Azərbaycan Respublikasının Baş Prokurorluğuna məlumat verilməsi xahiş edilib.

Qeyd edilən xüsusatlardan əlavə, mərhumun atası Bəybala Hüseynovun Baş Prokurorluğa ünvanladığı ərizələrinə əlavə etdiyi Türkiyə Respublikasında istintaq prosesindən kənar keçirilmiş təkrar ekspertiza rəylərinin həqiqiliyini müəyyən etmək üçün həmin dövlətin səlahiyyətli orqanlarına, habelə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "Məhkəmə Tibbi Ekspertizası və Patoloji Anatomiya" Elmi-Təcrübi və Tədris Birliyinə sorğular ünvanlanıb, həmin qurumlardan daxil olmuş məlumatlarda arvadı Elfira Hüseynova tərəfindən icazə verilmədiyi üçün E.Hüseynovun meyitinin məhkəmə-tibbi müayinəsi aparılmadığından onun ölümünün səbəblərinin müəyyən edilməsinin mümkün olmadığı bildirilib.

Bununla yanaşı, Türkiyə Respublikasında aparılmış istintaqla da E.Hüseynovun öldürülməsi faktı müəyyən olunmayıb, mərhumun səhhəti ilə bağlı əziyyət çəkməsi, 2013-cü ildə qara ciyər transplantasiyası, 2017-ci ildə daxili qanaxma diaqnozu ilə əməliyyat keçirməsindən sonra ağır idman növləri ilə məşğul olmasının qəfil ölümə səbəb ola biləcəyi istisna edilməyib.

Qeyd edilənlərlə əlaqədar olaraq, 3 aprel 2019-cu ildə Bəybala Hüseynov Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini Rüstəm Usubov tərəfindən qəbul olunmaqla dinlənib, ona hüquq və vəzifələri ətraflı izah edilib.

Hazırda Baş Prokurorluq tərəfindən Emin Hüseynovun ölümünün səbəbini dəqiqləşdirmək məqsədilə təkrar kompleks məhkəmə-tibbi ekspertizasının keçirilməsi, həmçinin istintaqı aparan müstəntiqin Azərbaycanda aparılacaq prosessual hərəkətlərin keçirilməsi zamanı iştirak edilməsi ilə bağlı Türkiyə Respublikasının səlahiyyətli orqanlarına ünvanlanmış beynəlxalq sorğular hazırlanaraq qarşı tərəfə çatdırılması məsələsinə baxılması üçün Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə göndərilib.

Baş Prokurorluqdan kütləvi informasiya vasitələrinin nümayəndələrindən xahiş edilir ki, həqiqətə uyğun olmayan məlumatların yayılmaması və bu kimi halların gələcəkdə təkrarlanmaması məqsədilə həmin məlumatları dərc etməzdən əvvəl informasiyanın düzgünlüyünü Baş Prokurorluğun Mətbuat xidməti ilə dəqiqləşdirsinlər.

***Baki-xeber.com***

**Məlumata görə, hazırda ölkədə fəaliyyət göstərən bankların mütləq əksəriyyəti 11 iyun 2013-cü il tarixindən qüvvədə olan "Banklarda korporativ idarəetmə standartları"nın ("Standartlar") "Məlumatların açıqlanması" adlı 14-cü bəndinə, demək olar ki, riayət etmir. Məsələ ondadır ki, həmin bənddə açıqlanmalı olan məlumatlar konkret sadalanır və onların bankın saytında yerləşdirilməsi tələb olunur.**

# Bankların böyük qanunsuzluğu - saytlarda fəaliyyət göstəriciləri yarımçıq verilir, rəqəm gizlətməyin məqsədləri...

***Yunus Əliyev:** "Hesab edirəm ki, zamanlama ilə bağlı problemlər ola bilər"*

***Rəşad Həsənov:** "Çünki bank sektorunun özündə həddən artıq qanunsuzluq var və bu səbəbdən məlumatları gizlədirlər"*




Heç bir bank açıqlamalı olduğu məlumatları tam açıqlamır. Bütün banklar üzrə açıqlanan məlumatların orta göstəricisi cəmi 59,2 faizdir.

Qeyd edək ki, açıqlanmalı olan məlumatlar standartların müvafiq bəndlərinə uyğun olaraq 5 qrupa bölünüb. Birincisi, bank və onun fəaliyyəti barədə ümumi məlumat verilməlidir. Əsasən aşağıdakı məlumatlar açıqlanmır: idarəetmə orqanları və daxili komitələr, mükafatlandırma siyasətinin əsas prinsipləri, əlaqədar şəxslərlə bağlanmış əqdlərin ümumi məbləği və bu məbləğin bankın məcmu kapitalına olan nisbəti və dividend siyasəti. İkincisi, illik maliyyə hesabatları bankın saytında yerləşdirilməlidir. Üçüncüsü, rüblük maliyyə hesabatları göstərilməlidir. Dördüncüsü, kapitalın strukturu və adekvatlığı barədə məlumatlar ətraflı göstərilməlidir. Beşincisi, risqlərin idarə edilməsi barədə məlumatlar göstərilməlidir. Çünki investor və müştəriləri, ilk növbədə, məhz risqlərin idarə edilməsi maraqlandırır. Bankların mütləq əksəriyyəti bu qrup üzrə yalnız ümumi sözlərlə kifayətlənərək konkret məlumatları açıqlamır. Əsasən də aşağıdakı məlumatlar açıqlanmır: vaxtı keçmiş kreditlərin məbləği və kredit portfelində xüsusi çəkisi, qeyri-standart kreditlərin cəmi və bu kreditlərin hər bir alt-kateqoriyası üzrə məbləği və s.

Maraqlıdır, banklar özləri barədə qanunla nəzərdə tutulan məlumatları saytlarına niyə yerləşdirməyə həvəsli deyillər? Niyə yuxarıda sadalanan məqamlara çox az yer verirlər?

**Məsələyə münasibət bildirən Azərbaycan Banklar Assosiasiyasının mətbuat xidmətinin rəhbəri Yunus Əliyev bununla o qədər də razılaşmadı:** "Biz onların verdiyi məlumatları götürərək təhlillərimizdə istifadə edirik. Hesab edirəm ki, zamanlama ilə bağlı problemlər ola bilər. Belədə bütün banklar sözügedən məlumatları yerləşdirir. Həm balanslarını, həm də hesabatlarını yerləşdirirlər".

**Sözügedən məsələyə aydınlıq gətirən iqtisadçı-ekspert Rəşad Həsənovun sözlərinə görə, bankların məlumatları gizlətməsi bir sıra faktorlarla bağlıdır:** "Birincisi, bazar liberal deyil. Banklar liberal bazarda rəqabət aparmırlar. Banklar üçün o qədər də əhəmiyyətli deyil nə qədər şəffafdırlar, nə qədər məlumatları ictimailəşdirirlər, müştərilər hansı formada bankları seçirlər və s. Azərbaycanda bank sektoru tam təşəkkül tapmayıb. Tam təşəkkül tapmadıqları üçün də normal rəqabətli şərtlər daxilində fəaliyyət göstərən subyektlər deyillər. Digər tərəfdən, bank sektorunun özündə həddən artıq qanunsuzluq var və bu səbəbdən məlumatları gizlədirlər. Bu qanunsuzluqların nəticələrini biz 2015-ci ildə baş verən devalvasiyadan sonra gördük. Məlum oldu ki, bir sıra bankların sadəcə şişirdilmiş göstəriciləri var. Yəni bankların içi boşdur. Sözügedən nöqsanlar bu gün də banklarda qalmaqdadır. Başqa bir tərəfdən, bəzi hallarda bu məlumatların ictimailəşməsi bankların reputasiyasına mənfi təsir göstərir. Məsələn, Azərbaycanda problemli kreditlərin 10-11 faiz olduğu deyiləndə, əslində, bunun daha böyük olduğu ortada idi. Daha sonra xarici reytinq agentlikləri bəyan etdilər ki, ifadə olunan toksid aktivlər reallıqda 3 dəfədən çoxdur. Banklar bu məlumatları bəyan etsələr, o zaman əmanətçilərdən vəsait cəlb edə bilməzlər. Bu mənada, banklar məlumatları gizlətməkdə maraqlıdırlar. Çünki bankların özlərinin daxilində çox ciddi qanunsuzluqlar var".

***Vidadi ORDAHALLI***

**Son günlər sosial şəbəkədə "Sabina Perfumery & Cosmetics" mağazalarında vaxtı keçmiş məhsulların alıcılara hədiyyə kimi təqdim olunması barədə məlumat yayılır.**

# "Sabina Parfüm" hədiyyəli kremlərin yararsızlığı ittihamlarına necə cavab verdi...




***Elçin Qurbanov:** "Sabina Perfumery & Cosmetics" mağazasında vaxtı keçmiş məhsul yoxdur"*

***Eyyub Hüseynov:** "Saxta, vaxtı bitmiş məhsulların satılması hazırda brend dükanlarda daha çox baş verir"*

Bakinka Əliyeva soyadlı xanım "Facebook" səhifəsində etdiyi paylaşımda "Sabina Perfumery & Cosmetics" şirkəti ilə bağlı ittiham səsləndirib. Paylaşımı çoxsaylı "Facebook" istifadəçisi tərəfindən müzakirə olunub və əksəriyyət də şərhlərində "Sabina Perfumery & Cosmetics" haqda tənqidi fikirlər bildirib.

İstifadəçilər paylaşımın haqlı olduğunu, bəziləri isə adıçəkilən şirkətin məhsullarını alarkən oxşar hallarla rastlaşdığını yazıblar. Bir çoxu "Sabina Perfumery & Cosmetics"in istehlakçıları aldatdığını və malları alıcılara sırıdığını bildirib. Şərh yazanlar arasında məhsulu qaytarmağı məsləhət verənlər və bu şirkətin məhsullarını almamağı tövsiyə edənlər də olub.

Şikayətçinin yazdığı statusu olduğu kimi təqdim edirik: "Mənim şikayətim "Sabina Perfumery & Cosmetics" şirkətindəndir. 5-ci gün (3 may) "Sabina Perfumery & Cosmetics"in dükanından alış-veriş etdim. Kassada mənə kremi hədiyyə kimi verdilər. Məlum oldu ki, kremdən son istifadə tarixi keçib. Vaxti kecmiş mallarını tullamaga deyəsən heyifləri gəlir, camaata hədiyyə kimi verirler. Ayıb olsun".

B.Əliyeva adlı şəxsin şikayətini nəzərə alıb "Sabina Perfumery & Cosmetics" mağazalar şəbəkəsi ilə əlaqə saxladıq. Mağazanın müdir müavini Elçin Qurbanov "Bakı-Xəbər"ə açıqlamasında sosial şəbəkədə yazılanların heç bir həqiqət olmadığını dilə gətirdi: "Ümumiyyətlə, "Sabina Perfumery & Cosmetics" mağazasında vaxtı keçmiş məhsul yoxdur. İstifadə müddəti bitməsinə 1 həftə qalmış kosmetik məhsullar satışdan yığışdırılır. Maraqlıdır, satışdan yığışdırılmış məhsul alıcıya necə hədiyyə kimi təqdim olunub?".

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirdi ki, azad bazar iqtisadiyyatı inkişaf etdikcə, bu seqmentlərdəki mənfi hallar əvvəlki illərə nisbətən artaraq pisə doğru dəyişib.** Onun sözlərinə görə, hazırda ölkədə fəaliyyət göstərən brend mağazalarda da saxta ətirlərə rast gəlmək mümkündür: "Əhali bilməlidir ki, ərzaq məhsulları kimi, ətirlərin də istifadəyə yararlılıq müddəti olur. Müştərilər göstəriciləri uyğun olmayan belə ətirləri almaqdan imtina etməlidirlər. Saxta, vaxtı bitmiş məhsulların satılması hazırda brend dükanlarda daha çox baş verir. "Sabina" parfümeriya və kosmetika mağazalar şəbəkəsindən şikayət daxil olub. Deməli, bu şirkət vətəndaşa krem satıb və müştəri də məhsulu alandan sonra müəyyən kodlarla axtarış verərək baxıb ki, onun vaxtı may ayında artıq bitib".

E.Hüseynov hesab edir ki, bazarın parfümeriya malları seqmenti ən çirklənmiş seqmentlərdən biridir.

***Günel CƏLİLOVA***

# Astara gömrük postunda vətəndaşlara qarşı qanunsuz yoxlamalar iddiası...

**Dövlət Gömrük Komitəsi Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin məlumatına görə, bəzi kütləvi informasiya vasitələrində Dövlət Gömrük Komitəsinin və qurumlarının fəaliyyəti ilə bağlı həqiqətə uyğun olmayan, qeyri-peşəkar məlumatlar yayımlanmaqdadır.**




Həmin məlumatlarda İran İslam Respublikası ilə sərhəddə yerləşən Astara gömrük postunda, guya vətəndaşlara qarşı qanunsuz yoxlamalar tətbiq edildiyi, süni yoxlamalar nəticəsində insanların uzun müddət gömrük zonasında gözlədildiyi, gömrük baxışının xüsusi avadanlıqlarla deyil, fiziki üsullarla həyata keçirildiyi iddia edilir.

Hər cümləsi müəllif və yayımçılar üçün qanun qarşısında məsuliyyət yaradacaq yazıda, hətta Astara gömrük postunda vətəndaşlara "işgəncə" verildiyi iddia olunur.

İlk növbədə qeyd edək ki, Dövlət Gömrük Komitəsi gömrük nəzarət vasitələri ilə təminat baxımından hətta Avropanın bəzi inkişaf etmiş ölkələrini belə geridə qoyur.

Gömrük nəzarəti zonasına daxil olan şəxslərin əl yükləri və nəqliyyat vasitələri ilk növbədə həmin avadanlıqlar vasitəsilə yoxlanır və zərurət yarandıqda fiziki baxışa yönləndirilir ki, bu da qanunvericiliyə görə gömrük orqanları və əməkdaşlarının müstəsna hüququdur.

Astara gömrük postunda baş verən sıxlıqlara gəlincə, bu hal həftənin bəzi günlərinin müəyyən saatlarında baş verir. Nisbi xarakterli bu sıxlıqlar vətəndaşların sərhədi günün eyni saatlarında keçmək istəyindən irəli gəlir ki, Komitənin rəhbərliyi və aidiyyəti qurumları dəfələrlə bu barədə maarifləndirici açıqlamalar verərək ictimaiyyəti məlumatlandırıblar.

Astara gömrük postunda nisbi yubanmaların əsas səbəbi isə sərhədi keçən vətəndaşların Nazirlər Kabinetinin 305 saylı qərarının tələblərini pozaraq şəxsi istehlak miqdarından artıq malları gömrük sərhədindən keçirməyə çalışmasıdır. Bu da əlavə yoxlamalara, gömrük nəzarəti müddətinin artmasına, sadəcə vətəndaşlar üçün deyil, gömrük orqanları üçün də əlavə vaxt itkisinə və əmək sərfinə səbəb olur. Ölkənin iqtisadi təhlükəsizliyini təmin etməklə yanaşı, gömrük orqanlarının əsas fəaliyyət istiqamətlərindən biri də qaçaqmalçılığın, narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınmasıdır. Ölkəmizin Şərqdən Qərbə daşınan narkotik vasitələrin marşrutu üzərində yerləşdiyini və narkotiklərin əsasən cənub sərhədlərimizdən gömrük ərazisinə daxil olduğunu nəzərə alsaq, gömrük nəzarəti tədbirlərinin də gücləndirilməsinin vacibliyini aydın başa düşmək mümkündür.

Onu da qeyd edək ki, son bir ayda Astara gömrük postunun əməkdaşları tərəfindən 25 fakt üzrə 6 kq-dan artıq narkotik vasitə, psixotrop və güclü təsiredici maddə aşkar edilərək dövriyyədən çıxarılıb. Bu da qeyri-peşəkarcasına və ya kimlərinsə sifarişi əsasında böhtan xarakterli məlumatlar hazırlamaq və yayımlamaqdan daha vacib və önəmli fəaliyyətdir.

Dövlət Gömrük Komitəsinin sədri mütəmadi olaraq gömrük-sərhəd buraxılış məntəqələrinə səfər edərək vəziyyəti yerində araşdırır, gömrük nəzarətinin səmərəli şəkildə təşkili, sərhədkeçmə proseslərinin sadələşdirilməsi, infrastrukturun yenidən qurulması, vətəndaşların məmnunluğunun təmin edilməsi istiqamətində müvafiq göstərişlərini verir və bu barədə Komitənin rəsmi internet səhifəsi ilə yanaşı, kütləvi informasiya vasitələrində də kifayət qədər məlumat yayımlanır.

Gömrük sahəsində islahatların icra vəziyyəti ilə bağlı iddialara gəlincə isə Azərbaycan gömrüyünün bu istiqamətdə əldə etdiyi təcrübə artıq Avropda öyrənilir. Dövlət Gömrük Komitəsi bir daha media qurumları və jurnalistlərə Komitənin fəaliyyəti ilə bağlı məlumatları hazırlayarkən ölkə qanunlarına əməl etməyə çağırır. Bildirilir ki, təqdim edilən videolardan da vətəndaşların Nazirlər Kabinetinin 305 saylı qərarının tələblərini pozaraq şəxsi istehlak miqdarından artıq məhsulları ölkə ərazisinə gətirdiklərini və bunun gömrük nəzarətinin müddətinin uzanmasına təsirini aydın görmək olar.

***Baki-xeber.com***

# Sabiq bankir Cahangir Hacıyevin "Cargill əməliyyatları" adı ilə xaricə pul axıtdığı başqa bir əməli də açılır

**Bakı Ağır Cinayətlər Məhkəməsində mənimsəmədə təqsirləndirilən "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin İdarə Heyətinin sabiq sədri Cahangir Hacıyev, onun bacanağı İsmayıl Hidayət-zadə, sabiq deputat Dünyamin Xəlilov, Camal Həsənov, Sərxan Rəsulov, Natiq İmanov, Samir Hacıyev, Təbriz Əbdülhəmidov, Mahir Qafarov, Sadıx Murtuzayev, Tərlan Məhərrəmov, Fəxrəddin Heybətov, Ramin Əhmədov, Fariz Muradov, Səlahəddin Qədirov, Erxan Cavad, Arif Ramazanov, Navai Şirinov, Svetlana Əsədullayeva, Arif Mədətov, Adil Mikayılov, Ramis Kərimovun cinayət işi üzrə məhkəmə iclası davam etdirilib.**



Hakim Faiq Qəniyevin sədrliyilə keçirilən prosesdə vaxtilə Cahangir Hacıyevin müavini olmuş Emin Mustafayev sabiq rəhbərini ittiham edib:

"Ona demişdim ki, bunlar risqlidir. Qaytarılmayan böyük kreditlərə, veksel əməliyyatlarına görə Cahangir Hacıyev günahkardır. Bankda Aktivlərin və Passivlərin İdarə Olunması Komitəsinə də C.Hacıyev rəhbərlik edirdi. Birinci günlər komitənin iclasları keçirilirdi. Orada veksel əməliyyatları müzakirə olunmurdu. Amma qərar verilirdi ki, veksel əməliyyatları reallaşdırılsın. Bu əməliyyatları, əsasən, bankın törəmə qurumu olan Moskva filialı həyata keçirirdi. Bakıdan - baş ofisdən vəsait Moskvaya göndərilirdi, orda da şirkətlərə ödənilirdi. Uzun müddət bankda durum yaxşı deyildi, maliyyə çatışmazlığı vardı. Mərkəzi Bankdan, xarici maliyyə qurumlarından maliyyə cəlb edirdik. Bankın likvidlik problemi vardı. Buna baxmayaraq, veksel əməliyyatları həyata keçirilirdi. Əməkdaşlar da deyirdi ki, Cahangir Hacıyev göstəriş verib, bu əməliyyatlar rəsmiləşdirilsin. Bir çox böyük kreditlərin ayrılması üçün Kredit Komitəsinin razılığı olub, bu haqda qərarlar var. Komitəyə də mən rəhbərlik etmişəm".

E.Mustafayev deyib ki, o qərarlar da C.Hacıyevin göstərişilə verilib: "Bu gün məhkəmədə araşdırma aparılan şirkətlərə kreditlər Cahangir Hacıyevin göstərişi ilə verilib. Demişdi ki, Dünyamin Xəlilovun idarə etdiyi şirkətlərə kreditlər ayrılsın".

E.Mustafayev cinayət işində bəhs olunan "Cargill əməliyyatları" barədə də danışıb. Bildirib ki, "Cargill" Amerika şirkətidir, bir sıra başqa sahələrlə yanaşı, maliyyə kreditləşməsi ilə də məşğul olur:

"Bu şirkətlə əməkdaşlıqda sənəddə göstərilir ki, mal dövriyyəsi var, nəsə alınıb, amma əslində heç nə olmur. Sadəcə maliyyə verir. O vəsaitləri də Beynəlxalq Bank ödəyirdi. Risqli idi. Biz bu risqləri deyəndə Cahangir Hacıyev irad bildirirdi ki, bunu qadağan edən norma yoxdur. Vəsaitlər də xaricə gedir, qayıtmırdı. Cahangir Hacıyevə problemi deyəndə cavab verirdi ki, Dünyamin Xəlilovla danışın. O da deyirdi ki, Bakıda tikinti layihələri var, başa çatsın, ödəyəcək".

Şahid deyib ki, bankın Müşahidə Şurası 2009-cu ildə verdiyi bir qərara görə 1.5 milyondan yuxarı kreditlərin ayrılması üçün Müşahidə Şurasının razılığı olmalıydı. Amma bir çox hallarda Müşahidə Şurasına həmin kreditlər haqda məlumat verilməyib.

Vəkillər E.Mustafayevə məhkəmədə dindirilən şahidlərin ifadəsi haqda məlumat veriblər. Şahidlər deyib ki, bank əməliyyatları barədə sistemdəki məlumatlara Müşahidə Şurası üzvlərinin sərbəst çıxışı vardı. Onlar istədikləri məsələ ilə bağlı mövqelərini ortaya qoya bilərdilər. Müşahidə Şurasının sədri də maliyyə nazirinin müavinidir. Vəkillər E.Mustafayevdən soruşub ki, C.Hacıyevin qanunsuz göstərişlərini görürdüsə, bəs niyə ona əməl etmək əvəzinə, vaxtında hüquq-mühafizə orqanlarına məlumat verməyib, illər ərzində onun vəzifədən çıxmasını gözləyib?

E.Mustafayev deyib ki, birbaşa İdarə Heyətinin sədrinə tabe olduğuna görə onun göstərişlərindən kənara çıxa bilməyib: "Amma özünə bildirirdim. Sonradan mən İdarə Heyətinin sədri vəzifəsini icra edəndə hüquq-mühafizə orqanlarına məlumat verdim".

Qeyd edək ki, rəsmi məlumata əsasən, aparılmış istintaqla 2001-2015-ci illərdə "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin İdarə Heyətinin sədri vəzifəsində işləmiş C.Hacıyevin göstərişləri əsasında ayrı-ayrı ölkələrdə yaradılmış hüquqi şəxslərlə real dəyəri olmayan sadə veksellərin alqı-satqısına dair 3,4 milyard ABŞ dolları və 987 milyon avro məbləğində (müvafiq dövrün məzənnəsi ilə 3,8 milyard manat) müqavilələr bağlanaraq qanunsuz veksel əməliyyatları aparılmasına dair əsaslı şübhələr müəyyən edilib.

Aparılmış istintaqla C.Hacıyevin tanışı Dünyamin Xəlilov, digər 20 nəfər və qeyriləri ilə birlikdə qanunsuz maliyyə əməliyyatları aparılan və real dəyəri olmayan veksellərin alınması, eləcə də təminatı olmayan kreditlərin verilməsi yolu ilə ümumilikdə 4,7 milyard manat məbləğində pul vəsaitinin mənimsəmə və digər cinayətlər yolu ilə 2,5 milyard manat hissəsini ələ keçirməklə cinayət yolu ilə əldə edilmiş həmin vəsaitin 2 milyard manatını leqallaşdırmasında, digər 2,2 milyard manat məbləğində pul vəsaitinin isə müxtəlif əməliyyatlara yönəltməklə "Azərbaycan Beynəlxalq Bankı" ASC-yə ziyan vurmasına əsaslı şübhələr müəyyən edilib.

Xatırladaq ki, C.Hacıyev Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 15 il, D.Xəlilov 13 il və İ.Hidayət-zadə isə 7 il müddətinə azadlıqdan məhrum edilib. Bakı Apllyasiya Məhkəməsinin qərarı ilə D.Xəlilovun cəzası 13 ildən 12 il 9 aya, Ali Məhkəmə isə İ.Hidayət-zadənin cəzasını 5 ilə endirib.

# Ramazanın gəlişi ilə xurma 20-27 manata qalxdı...

**İslam dünyasında ən müqəddəs ay Ramazan ayı qəbul edilib. Ramazan ayında insanlar niyyət edərək oruc tutur, ibadət edir, pis əməllər etməkdən uzaq olurlar. Oruc tutanların iftar süfrəsində xurmanın olması tövsiyə olunur. İftarı xurma ilə açmaq insana uzunmüddəli toxluq verir, həddən artıq çox yeyərək mədənin birdən-birə yüklənməsinin qarşısın alır.**

*"İran başqa ölkələrə, eləcə də Azərbaycana xurma ixracını dayandırıb"*

***Qadir Bayramlı:** "Ramazan ayında xurmanın qiymətini sabit saxlamağın bir yolu da bu məhsulun Azərbaycana başqa ölkələrdən idxal mənbəyinin axtarılmasıdır"*

Xurma təkcə oruc tutanların deyil, həm də faydalı təsirləri olduğu üçün hər kəsin yeməli olduğu meyvədir. Tərkibində bədənin immun sistemini gücləndirən B1, B2, E, C, A vitaminləri, karbohidratlar, fosfor, kalsium, dəmir, maqneziumu birləşdirən elementlər olduğuna görə tez həzm olunmaya, itirilmiş enerjinin bərpasına, qan təzyiqini normada saxlamağa kömək edir. İnsanlar xurma meyvəsinin deməklə bitməyən faydalı xüsusiyyələrini həkim məsləhətlərində də eşidirlər.

Xurma Ramazan ayında, digər müsəlman ölkələrində olduğu kimi, Azərbaycanda da ən çox istehlak olunan məhsul sayılır. Hər il Ramazan ayı ərəfəsi bu məhsulun qiymətində cüzi də olsa artım müşahidə olunsa da, bu dəfə xurmanın qiymətində nəzərəçarpacaq artım var. Buna səbəb isə Azərbaycanın ən çox xurma idxal etdiyi ölkə olan İrandan xurma ixracının dayanmasıdır. Bazar və iri supermarketlərdə apardığımız araşdırma da göstərir ki, xurmanın qiymətində xüsusilə açıq çəkidə satışda daha çox qiymət artımı baş verib. Ötən



Ramazanda bir kiloqramı 20 manata satılan xurmanın qiyməti hazırda 27 manata təklif edilir. Satıcılar qiymət artımının səbəbini izah etməyə çətinlik çəksələr də, bahalaşmanın topdansatışda baş verdiyini söylədilər.

Bazarlarda xurmanın qiyməti növünə görə dəyişir. Ən bahalısı Mədinədən gətirilən "Peyğəmbər xurması", ən ucuzu, həmçinin, ən çox tələbat olan isə karton qutularda satılan "İran" xurmasıdır. Azərbaycana İranla yanaşı, Tunis, BƏƏ, İordaniya, İsrail və ayrı-ayrı ərəb ölkələrindən xurma idxal edilir. Hazırda mağazalarda ən ucuz növlü xurmanın kilosu 2-3 manata yaxındır. Lakin qiymətlər getdikcə artır. Qeyd edək ki, marketlərdə belə xurmanın qiyməti fərqlidir. Belə ki, "Mədinə xurması" adı altında satışa çıxarılan bu məhsul "Bazarstore"da 28 AZN-ə, "Araz" marketdə 13,9 AZN-ə, "Bizim" marketdə isə 14,99 AZN-ə satılır. Qeyd edək ki, "Bazarstore" "Mədinə xurması" üzrə qiymətləri 1,6 dəfə (10 manata yaxın) artırıb. Belə ki, 1 həftə öncə "Bazarstore"da 18,06 AZN olan xurmanın qiyməti 28 AZN-ə çatıb.

Digər xurma növü olan Tunis xurmasının 1 kiloqramının qiyməti isə "Bazarsore"da 6,45 AZN, "Araz" marketdə 5,99 AZN qeydə alınıb.

İsrail xurmasının 1 kiloqramı "Bravo"da 27,9 AZN, "Bazarstore"da 28,81 AZN-ə satılıb. İran xurmasının 1 kiloqramı isə "Araz" və "Bizim" marketlərdə 4,99 AZN olub. Qutu ilə satılan xurma çeşidlərinin qiyməti isə 3 AZN və 24 AZN arasında dəyişir.

Məlumat üçün qeyd edək ki, mart-aprel aylarında İranda baş verən təbii fəlakətlər xurmanın qiymət artımına bir bəhanə oldu. Lakin əvvəlki illəri təhlil etsək, hər il Orucluq ayına yaxın İran bazarlarında qiymətlərin 5-6 dəfə bahalaşdığını görərik. Bunun da tək səbəbi işbazların "xurma oyunu"dur. Belə ki, ekspertlərin fikrincə, mövsümdə 1 kq xurmanın qiyməti 0.5 dollar olduğu zaman sahibkarlar tonlarla məhsulu fermerlərdən satın alıb saxlayır, bir müddət sonra 10 dəfə artığına bazara çıxarırlar. Ekspertlərin fikrincə, Azərbaycana xurma ən çox İrandan idxal olunduğuna görə baş verən bahalaşma da bununla əlaqəlidir.

**İqtisad Universitetinin dosenti Qadir Bayramlı xurmanın qiymət artımının iki amillə bağlı olduğunu dilə gətirdi:** "Məlumdur ki, iki aya qədərdir İran başqa ölkələrə, eləcə də Azərbaycana xurma ixracını dayandırıb. Xurmanın ixracının dayandırılması bizim kimi İrandan xurma idxal edən ölkələrdə qiymətə təsir edir. O da məlumdur ki, xurmaya ən çox tələbat Ramazan ayında olur. Tələbatın artması da qiymətlərin bahalaşmasına təsirini göstərir".

Q. Bayramlı hesab edir ki, Ramazan ayında xurmanın qiymətini sabit saxlamağın bir yolu da bu məhsulun Azərbaycana başqa ölkələrdən idxal mənbəyinin axtarılmasıdır: "İqtisadiyyatda buna şaxələnmə deyilir. Artıq Ramazan başlayandan Azərbaycanda da xurmaya tələbatın artacağı bəlli idi. Ona görə də Azərbaycan İranın xurma ixracına qadağa tətbiq etdiyini nəzərə alıb tələbatın Səudiyyə Ərəbistanı, Körfəz ölkələri vasitəsilə ödənilməsi üzərində iş aparmalı idi. Bu ölkələrlə iqtisadi əlaqələr qurmaq olardı, xurma məhsulunun idxal coğrafiyasını beləcə genişləndirməliydik. Məhsulun idxal coğrafiyası genişləndikcə, şaxələndikcə, ölkə vətəndaşlarının xurmaya olan tələbatını ödəmək üçün İrandan asılı qalmazdıq".

Həmsöhbətimiz onu da vurğuladı ki, Azərbaycan müsəlman ölkəsi olduğundan, xurmanın idxal rüsumunu da azaltmaq lazımdır: "Bu da qiymət ucuzlaşmasına gətirib çıxarar. Bütün bunları diqqətdə saxlamaqla bu gün xurmanın qiymətinin ucuzlaşmasına nail olmaq olar. Xurmanın qiymətində bahalaşmanın bir səbəbi xurmanın yetişmədiyi ölkələrdə bu məhsula tələbatın artmasıdır. Bu ölkələrdə tələbat artdığından, qiymətə təsir göstərir. Ona görə də Azərbaycan xurmanın yetişdiyi ölkələrdən iqtisadi baxımdan daha sərfəlisini seçərək, müvafiq əlaqələr qurmaqla ölkəmizə xurma idxalının həcmini artıra bilər".

*Günel CƏLİLOVA*

# Ermənistanın Azərbaycana təcavüzü nəticəsində itkin düşmüş soydaşlarımız unudulmayacaq...

**1988-ci ildən başlayaraq Ermənistanın təcavüzünə qarşı döyüşlərdə itkin düşmüş şəxslərlə bağlı Dövlət Komissiyası və Respublika Xatirə Kitabının birgə böyük həcmli və tarixi əhəmiyyətli işinin bir hissəsi yenicə yekunlaşıb. Minlərlə Azərbaycan vətəndaşının itkin düşdüyü ana qədərki həyat yolunu özündə əks etdirən dörd cildlik xüsusi buraxılışın ilk cildi artıq çapdan çıxıb. İlk cilddə 922 nəfər gənc, yaşlı qadın, kişi və uşaqlardan ibarət Azərbaycan vətəndaşı barədə məlumatlar yer alıb. Geniş oxucu marağını nəzərə alaraq, həmin nakam soydaşlarımızın bir neçəsi barədə məlumatı gündəlik olaraq yenidən sıra ilə təqdim etməyi qərara aldıq. Daha ətraflı məlumatı Xatirə Kitabının www.xatirekitabi.az saytından əldə edə bilərsiniz. Beləliklə, sözügedən nəşrdə yer alan itkin soydaşlarımızla bağlı məlumatları diqqətinizə çatdırırıq:**

**(Əvvəli ötən saylarımızda)**

**BABAYEV ELÇİN SİYASƏT oğlu**



21 sentyabr 1972-ci ildə Azərbaycan Respublikasının Salyan rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Salyan rayonunun Şorsulu kəndində yaşamışdır. Salyan RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Babayev Elçin Siyasət oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 31 mart 1993-cü ildə Qubadlı rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Babayev Elçin Siyasət oğlu 31 mart 1993-cü il tarixində Qubadlı rayonunun Qızartı dağı adlanan ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı yaralı vəziyyətdə döyüş bölgəsində qalaraq naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Babayev Elçin Siyasət oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BABAYEV ELŞƏN MƏHƏMMƏD oğlu**



15 mart 1969-cu ildə Azərbaycan Respublikasının Bakı şəhərində doğulmuşdur. Hərbi xidmətə qədər Bakı şəhərinin Nizami rayonunda yaşamışdır. Nizami RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Babayev Elşən Məhəmməd oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 15 fevral 1994-cü ildə Kəlbəcər rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Babayev Elşən Məhəmməd oğlu 15 fevral 1994-cü il tarixində Kəlbəcər rayonunun Murovdağ istiqamətində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Babayev Elşən Məhəmməd oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BABAYEV ƏLƏKBƏR ƏZİZAĞA oğlu**



24 iyun 1966-cı ildə Azərbaycan Respublikasının Bakı şəhərində doğulmuşdur. Hərbi xidmətə qədər Bakı şəhərinin Sabunçu rayonunda yaşamışdır. Sabunçu RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Babayev Ələkbər Əzizağa oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 11 noyabr 1992-ci ildə Ağdərə rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Babayev Ələkbər Əzizağa oğlu 11 noyabr 1992-ci il tarixində Ağdərə rayonu ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Babayev Ələkbər Əzizağa oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**(Ardı növbəti sayımızda)**

# Çingiz Mustafayevin "bəxtindən" "Avroviziya"da qan analizi qalmaqalı başlayıb

**1956-cı ildən bəri Avropa Yayım İttifaqına üzv olan ölkələr arasında keçirilən beynəlxalq mahnı müsabiqəsi "Avroviziya"da Azərbaycan da 2008-ci ildən iştirak edir. "Avroviziya" beynəlxalq mahnı müsabiqəsinə dünyanın özündə münasibət birmənalı deyil, bəzi ölkələr hesab edirlər ki, bu musiqi yarışmasından daha çox siyasi əhəmiyyət daşıyan bir mədəniyyət tədbiridir.**



*Aynurə Cəfərova: "Çingiz Mustafayev imtina etməyib, sadəcə, DNT analizi vermək onun üçün maraqlı olmayıb"*

Kimin necə düşünməsindən asılı olmayaraq, "Avroviziya" mahnı müsabiqəsi milyonlarla tamaşaçının böyük həyəcanla izlədiyi bir hadisədir.

Bildiyimiz kimi, Azərbaycanı "Avroviziya-2019" beynəlxalq musiqi müsabiqəsində Çingiz Mustafayev təmsil edəcək. Məlumatlara görə, əvvəlki illərdən fərqli olaraq, bu il iştirakçılardan qan analizi tələb olunub. Azərbaycanı yarışmada təmsil edəcək Çingiz Mustafayev isə, digər iştirakçılardan fərqli olaraq, qan analizi verməkdən imtina edib.

Məlumatlara görə, "Avroviziya"nın nə keçmiş, nə də mövcud qaydalarında iştirakçılardan qan analizi götürülməsi ilə bağlı bənd yoxdur. Deyilənə görə, bu ildən qeyri-rəsmi, şifahi formada iştirakçılardan qan analizi götürülməsi tələb olunub.

Qan analizi verməkdən imtina edən Ç.Mustafayevin buna görə müsabiqədən kənarda qalacağı barədə sosial şəbəkələrdə, şou-biznesdə müəyyən söz-söhbətlər dolaşır.

*Azərbaycanı "Avroviziya-2019"da təmsil edəcək Çingiz Mustafayev qan analizi verməkdən niyə imtina edib?*

Ç.Mustafayev qan analizi verməkdən niyə imtina edib?

**İctimai Televiziya və Radio Yayımları Şirkətinin mətbuat xidmətinin rəhbəri Aynurə Cəfərova "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycan təmsilçisinin qan analizi verməməsi onun müsabiqədə iştirakına heç bir əngəl törətməyəcək.** A.Cəfərovanın sözlərinə görə, təmsilçilərin qan analizi verməsi bir tələb deyil, bu könüllülük şəklində olan bir haldır. O, qeyd etdi ki, iştirakçılar arasında DNT analizi verənlər də, verməyənlər də olub.

*"İştirakçıların qan analizi verməsi nə xüsusi bir qaydadır, nə də məcburiyyətdir, bu, sadəcə, piar xarakterli fərdi bir şeydir"*

Onun dediyinə görə, müsabiqə iştirakçılarına pulsuz DNT testindən keçmək təklif edilib ki, hər kəs öz geneoloji ağacı barədə daha çox informasiya əldə etsin.

"Bu məcburi deyil, könüllülük əsasında olan bir məsələdir. Ç.Mustafayev imtina etməyib, sadəcə, DNT analizi vermək onun üçün maraqlı olmayıb. Fərqli nələrsə etməyə marağı olan iştirakçılar bu analizi veriblər. İştirakçıların qan analizi verməsi nə xüsusi bir qaydadır, nə də məcburiyyətdir, bu sadəcə piar xarakterli fərdi bir şeydir. Heç bir "Avroviziya" təmsilçisi üçün qan analizi vermək məcburi deyil. Bu yeni qayda da deyil, könüllü bir işdir, kim istəsə iştirak edə bilir. Bilirsiniz, hər bir iştirakçıya şəxsən yoxlamadan keçmək təklif edilib. Müsabiqədə iştirak etmək üçün qaydalarda heç bir dəyişiklik olmayıb. Qeyd etdiyim kimi, bütün bunlar piar xatirinə edilir" - deyə A.Cəfərova qeyd etdi.

Xatırladaq ki, bu günlərdə Rusiyanın "Avroviziya-2019"dakı təmsilçisi Sergey Lazarev analiz üçün qan verdiyini deyib. O, bu yolla qanına hansı müxtəlif millətlərin qanının qarışdığını bilmək istədiyini açıqlayıb. Ç.Mustafayev isə həmkarından fərqli olaraq, könüllü DNT analizi verməkdən imtina edib.

Məlumat üçün bildirək ki, müsabiqənin yarımfinalı 14-16 may, finalı isə 18 mayda Təl-Əvivdə "Dare to" (Arzularına sərbəstlik ver) devizi altında keçiriləcək. Müsabiqədə Ç.Mustafayev "Truth" ("Həqiqət") kompozisiyasını ifa edəcək. Mustafayev "Avroviziya-2019"un ikinci yarımfinalında 18-ci nömrə altında çıxış edəcək.

Ç.Mustafayev "Yeni ulduz" layihəsində (ATV) qalib gələndən sonra populyarlaşıb. O, həmçinin, gənc ifaçıların beynəlxalq "Yeni Dalğa" müsabiqəsində, "O səs Türkiyə" və "Ukraynanın səsi" vokal layihələrində də iştirak edib. Bir sıra musiqi nominasiyalarının laureatı, gənc nəslin ən çox tələb etdiyi ifaçılardan biridir.

*İradə SARIYEVA*

# Uzunqulaq idxalı xeyli azalıb, uzunqulağa valyuta xərcləməyə dəyərmi - idxalın sıfır həddə endirilməsi daha məqbul sayılır

**Son vaxtlar mütəmadi şəkildə dövlət qurumları tərəfindən Azərbaycanda olan uzunqulaqların sayı ilə bağlı məlumatlar açıqlanır. Maraqlıdır ki, bu cür statistika digər heyvanlarla bağlı bu şəkildə operativ təqdim edilmir. Ancaq statistikaya diqqət etdikdə məlum olur ki, Azərbaycanda uzunqulaqların sayında olan azalma ilə bağlı narahatlıq ifadə olunur.**



*"Xüsusi cinslərin idxalı ilə bağlı məlumatlar olub"*

Gəlin Dövlət Statistika Komitəsinin (DSK) Azərbaycanda mövcud olan uzunqulaqların sayını açıqladığı son məlumata diqqət edək.

Qurumdan bildiriblər ki, hazırda respublikada 28040 baş uzunqulaq var. 2015-ci ildə ölkədə 39 992, 2016-cı ildə 35 816, 2017-ci ildə 34 068, 2018-ci ildə 30 854 uzunqulaq mövcud olub.

Rəsmi statistikaya görə, 5 il ərzində ölkədəki uzunqulaqların sayı 11 952 baş azalıb. Ən çox uzunqulaq Gəncə-Qazax iqtisadi rayonunda (10524), ən az isə Ucar (1) rayonunda qeydə alınıb.

*Qadir Bayramov: "Hətta belə fikirlər var ki, bu heyvanın müəyyən toxumalarından qiymətli dərman hazırlayırlar"*

DSK-dan bildirilib ki, 2015-2018-ci illər və 2019-cu ilin yanvar-mart aylarında Azərbaycana uzunqulaq idxal olunmayıb. Rəsmi qurum son üç ildə uzunqulaq idxalının olmadığını deyirsə, deməli, əvvəlki illərdə belə halın olduğu şübhə doğurmur. Əslində, idxalın olmaması yaxşı haldır. Çünki Azərbaycanın uzunqulaq idxalına da valyuta xərcləməsi lazımsız sayıla bilər. Bu heç də o anlama gəlməsin ki, biz ölkədə uzunqulağa tələbatın olmadığını demək istəyirik. Bilirik ki, bu heyvandan kənd təsərrüfatında, hətta hərbdə geniş istifadə olunur. Ancaq maraqlıdır, Azərbaycandakı şərait uzunqulaqların nəslinin artmasına tam uyğun olduğu halda, bizim xaricdən bu adda heyvanı idxal etməyimiz nə dərəcədə doğru olar? Qısası, uzunqulağa da valyuta xərcləməyə dəyərmi?

**Kənd təsərrüfatı üzrə ekspert Qadir Bayramov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, uzunqulaqların sayının azalması faktdır:** "Bunu bir sıra faktorlarla izah etmək olar. Birincisi, bu onlara olan tələbin azalması ilə əlaqədardır. Əvvəllər rayonlarda uzunqulağa olan tələbat daha çox idi. İndi insanlar atlara və motosikletlərə üstünlük verirlər. Onların sürəti və yükgötürmə qabiliyyəti daha üstündür. Son 4 ildə 10-12 minarası bu heyvanın azalması müşahidə edilir. İndi rayonlarda örüşlərin ərazisi də çox deyil. Bunlar bir qədər örüşsevər heyvandır. Hətta belə fikirlər var ki, bu heyvanın müəyyən toxumalarından qiymətli dərman hazırlayırlar. Bu problem Orta Asiya ölkələrində də mövcuddur. Oradan bu məqsədlə başqa ölkələrə satıldığı bildirilir. Bizdə belə halın olub-olmaması ilə əlaqədar qurumlar məşğul olmalıdırlar. Nəticə etibarilə, həm tələb azalıb, həm də onların saxlanması üçün münbit şərait zəifləyib".

"Azərbaycan nə vaxtsa uzunqulaq idxal edibmi" sualına isə ekspertin cavabı belə oldu: "Xüsusi cinslərin idxalı ilə bağlı məlumatlar olub. Özü də onları bahalı qiymətə gətirirdilər. Son dövrlərdə bu yöndə olan idxal da dayanıb. Bahalı qiymətə gətirilən uzunqulaq cinslərini zooparklarda saxlamaq məqsədilə istifadə edirdilər. Eyni zamanda, elə cinslər idxal edilirdi ki, onların yükdaşıma qabiliyyəti çox artıq olurdu. Bir daha deyim ki, buna artıq tələbat yoxdur. Hətta burdan xaricə aparılma ehtimalı çoxdur. Belə məlumatlar da var ki, onların kəsilib mal əti adı ilə əhaliyə satılması da baş verir. Bütün bunları əlaqədar qurumlar dəqiqləşdirməlidirlər".

*Məhəmmədəli QƏRİBLİ*

№ 82 (3980) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

8 MAY 2019-cu il

## Elan

Gәdәbәy rayonu, Daryurq kәndindә Əliyev Abbas Mәhәmmәd oğluna mәxsus pay torpağına verilmiş JN №80A, JN №80B saylı şәhadәtnamә vә 3N 216 saylı dövlәt aktı itirildiyi üçün etibarsız sayılır.

Şәki rayonu, Baş Layısqı kәnd sakini Alimov Abdurәhim İlyas oğlunun adına verilmiş JN: 260 a saylı torpağın mülkiyyәt hüququna dair şәhadәtnamә itdiyi üçün etibarsız sayılır.

Şәki rayonu, Şorsu kәnd bәlәdiyyәsinә mәxsus 8 ha. torpaq sahәsinin 0164144 saylı Dövlәt reyestrindәn çıxarışı itdiyi üçün etibarsız sayılır.

Bağırova Lalә Ceyhun qızına Bakı Dövlәt Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Mәmmәdova Nәrmin Namiq qızına Bakı Dövlәt Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Kәrimli Rәsul Anar oğluna Bakı Dövlәt Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

İsxanova Yeganә Abtalıb qızının adına, Binәqәdi rayonu, 7-ci mkr, ev 2, mәnzil 83 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

Abışeva Sona Şәmsәddin qızına mәxsus reyestr №4209 qeydiyyat vәsiqәsi (çıxarış) itdiyi üçün etibarsız sayılır.

Əkbәrova Aynur Vaqif qızına mәxsus, Bakı şәhәri, Nәrimanov rayonu, Y.Nәsirov küçәsi, mәhәllә 1921, mәnzil 7 ünvanının qeydiyyat vәsiqәsi (çıxarış) itdiyi üçün etibarsız sayılır.

Orucova Asmaya Alasman qızının adına, Bakı şәhәri, Nizami rayonu, Q.Qarayev prospekti, ev № 56, mәnzil 30 ünvanına verilmiş qeydiyyat vәsiqәsi (seriya MH № 143278) itdiyi üçün etibarsız sayılır.

Hüseynova Zibeydә Mәmmәd Rza qızının adına, Bakı şәhәri, Sәbail rayonu, Aqil Quliyev, ev 4, mәnzil 16 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

Mәmmәdova Xuraman Mәmmәd qızının adına, Bakı şәhәri, Sabunçu rayonu,Vişnyovka bağlar sahәsindә yerlәşәn 1700 b saylı bağa verilmiş order №1 itdiyi üçün etibarsız sayılır.

Quluzadә Afәt Əhmәd qızınını adına, Bakı şәhәri, Sәbail rayonu, Neftçilәr prospekti, ev 69, mәnzil 23 ünvanının qeydiyyat vәsiqәsi (çıxarış) itdiyi üçün etibarsız sayılır.

Rәhmanov Rövşәn Rәsul oğlunun adına, Abşeron rayonu, Hökmәli qәsәbәsindә yerlәşәn torpaq sahәsinә verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

Qarayev Tural Etibar oğluna İsmayıllı RPŞ tәrәfindәn 21.08.2017-ci il tarixdә verilmiş şәxsiyyәt vәsiqәsi (AZE-16527025) itdiyi üçün etibarsız sayılır.

İbrahimova Sevda Bilal qızına mәxsus, Bakı şәhәri, Yasamal rayonu, S.Əsgәrov küçәsi, dalan 1, ev 1 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

Süleymanov Rövşәn Aqif oğluna Azәrbaycan Dövlәt İqtisad Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Abbasov Nәbi Əli oğlunun adına, Abşeron rayonu, Masazır kәndindә yerlәşәn 0.20 ha torpaq sahәsinә 19.11.2014-cü il tarixdә (reyestr 308013089563) verilmiş çıxarış vә hәmin әrazidә yerlәşәn 0.08 ha torpaq sahәsinә 26.12.2014-cü tarixdә (reyestr 308013091336) verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

Əlәsgәrov Fuad Nәsir oğluna mәxsus, Abşeron rayonu, Novxanı kәndindә yerlәşәn bağ evinә verilmiş JN-629 A şәhadәtnamә itdiyi üçün etibarsız sayılır.

## "Azercell" istedadlı gәnclәri Rәqәmsal Dünyaya yaxın edir!

*"Azercell Telekom" MMC yeni "Azercell-Lab" - ödәnişli tәcrübә proqramını elan edir*

**Gәnclәrin peşәkar vә fәrdi fәaliyyәtini dәstәklәmәk vә Azәrbaycanda tәhsilin inkişafına töhfә vermәk mәqsәdilә, "Azercell" yeni "Azercell-Lab"- ödәnişli tәcrübә proqramını elan edir.**

"Azercell-Lab" inkubasiya mәrkәzi tәlәbәlәrә 2 fәrqli istiqamәtdә seçim etmәk imkanı tәklif edir: "It-lab" vә "Biznes-lab". Belәliklә, iyul ayının 1-dәn başlayaraq "Azercell" bakalavr vә magistr tәlәbәlәri, hәmçinin, bakalavr vә magistr dәrәcәlәrindә ali tәhsillәrini artıq tamamlamış gәnclәr üçün "It-lab" vә "Biznes-lab" tәcrübә proqramlarına qoşulmaq üçün unikal imkan yaradır. "Azercell"in "İt-lab" vә "Biznes-lab" inkubasiya mәrkәzlәri tәlәbәlәrә fәrdi inkişaf vә peşәkar mühitdә karyera qurmaq imkanları, şirkәt tәrәfindәn hәyata keçirilәn sosial layihәlәrdә, müxtәlif tәlimlәrdә iştirak vә әvәzolunmaz tәcrübә qazanmaq fürsәtlәrini tәklif edir.

Layihәnin mәqsәdi rәqәmsal texnologiyalara marağı olan tәlәbәlәrә dәstәk olmaq vә onları telekom sahәsinin әn son yeniliklәrlәri ilә daha yaxından tanış olmağa dәvәt etmәkdir. Qeyd edәk ki, "Azercell"in "IT-lab" vә "Biznes-lab" inkubasiya mәrkәzlәri 6 aylıq ödәnişli tәcrübә proqramlarıdır. Əlavә olaraq, tәcrübәçilәr "Azercell" tәrәfindәn hәyata keçirilәn sosial layihәlәrdә, müxtәlif tәlimlәrdә vә şirkәtin korporativ tәdbirlәrindә iştirak etmәk imkanına da malik olacaqlar.

Qeyd edәk ki, müraciәtlәrin qәbulu artıq açıqdır vә son qәbul tarixi may ayının 20-dir. Seçim prosessini müvәffәqiyyәtlә tamamlayanlar iyul ayının 1-dәn şirkәtdә tәcrübәyә başlayacaqlar.

Əgәr sәn liderlik keyfiyyәtlәrinә sahibsәnsә, innovativ, çevik vә yaradıcısansa, o zaman biz sәni axtarırıq! Komandamıza qoşul vә rәqәmsal dünyanın әn son yeniliklәrini bizimlә kәşf et! "Azercell"lә rәqәmsal gәlәcәk qurmaq fürsәtini әldәn vermә!

Daha әtraflı mәlumat üçün news@mcs.az ünvanına müraciәt edә bilәrsiniz.

## Ətraf mühitin çirklәnmәsinә qarşı yeyilә bilәn su...



**Ötәn il keçirilәn London marafonunda sonra әtrafda yaranan plastik şüşә çirkliliyi tәşkilatçılarda böyük narahatlığa sәbәb olmuşdu.**

"Yeniavaz.az" bildirir ki, bu problemin qarşını almaq istәyәn tәşkilatçılar bu dәfә iştirakçılara yeyilә bilәn su kapsulaları paylayıblar. Hәr il on minlәrlә idmançının iştirak etdiyi London marafonunda bu il bir ilk yaşanıb. İdmançılara qaçış zamanı plastik şüşәdә olan sular әvәzinә dәniz yosunundan hazırlanmış yeyilә bilәn su kapsulaları verilib. Yeni "Ooho" adlı su kapsulaları "Skipping Roks Lab" tәrәfindәn inkişaf etdirilib. Dәniz yosunlarından istifadә edilәrәk hazırlanan kapsulalar şәffafdır, dadsızdır vә ağızda rahatlıqla әriyә bilir. Əgәr istifadә edilmәsәlәr, 4 vә 6 hәftә әrzindә öz-özünә mәhv olur. Qeyd edәk ki, 2018-ci ildә baş tutan London Marafonunda 920 min plastik şüşә istifadә edilmişdi. Hazırlanan kapsulalar vasitәsi ilә bu rәqәm 2019-cu ildә 720 minә qәdәr düşüb.





**Qoç** - Bu gün sizin üçün praktiki olaraq mümkünsüz iş olmayacaq. Çünki, müsbәt tәmayüllәrin tәsiri böyükdür vә әn başlıcası, ulduzlar sizi himayә edir. İşdә ciddi uğurlara nail olaraq rәqiblәri arxada qoya bilәrsiniz.



**Buğa** - Bu gün müәyyәn uğurlar olacaq, fәqәt, dönәm heç dә yaxşı deyil. Ətrafınızdakı insanlar sizә yanlış münasibәt bәslәyәcәk, dәyәrlәndirmәdә sәhv edәcәklәr. Dostlar vә ya qohumlarla mübahisәlәrә şәrait yaratmayın.



**Əkizlәr** - Kiçik problemlәr, yaxın әtrafınızdakı insanlarla fikir ayrılıqları günü yorucu, usandırıcı edәcәk. Amma, әsla tәlaşa düşmәyin, narahat olmayın. Çәtin anlarda sizә dәstәk verәcәk, kömәk edәcәk insan yanınızda olacaq.



**Xәrçәng** - Hazır olun, sizi çox mürәkkәb, qarışıq, tәlatümlü gün gözlәyir. Anın hökmünә әsaslanaraq qәrar vermәyin, emosiyaların kölәsi olmayın. Sonradan peşmançılıq hissi yaradacaq hәrәkәtlәrә yol vermәyin.



**Şir** - Günün әksәr hissәsi sakit keçәcәk. Ciddi problemlәr vә hәyәcanlar olmayacaq. Digәr tәrәfdәn, әhәmiyyәtli uğur vә ya irәlilәyişә dә ümid etmәyin. Yeni işә başlasanız, gecikmәlәrә vә tәxirә salınmalara hazır olun.



**Qız** - Yaşananlara vә baş verәnlәrә real nәzәrlәrlә baxın. Əks tәqdirdә, öz illüziyalarınızın qurbanına çevrilәrәk, sahildәki qumsallıqda yaratdığı qum sarayının әbәdi olduğunu düşünәn sadәlövh xatırlada bilәrsiniz.



**Tәrәzi** - Bu gün laübәli vә qarışıq tәmayüllәrin, mürәkkәb hadisәlәrin tәsirlәrini hiss edәcәksiniz. Yaradıcı yanaşma, qeyri-standart hәll tәlәb edәn işlәrdә böyük uğur mümkündür. Sәliqә vә detallara ifrat diqqәt tәlәb edәn işlәrdәn yayınmayın.



**Əqrәb** - Sizin üçün çox mühüm sahәdә irәlilәyişә nail ola bilәrsiniz. Özü dә uğurlar kiçik olmayacaq. Seçdiyiniz yoldan sapmayın, başqalarının sizә mәnfi tәsir göstәrmәlәrinә imkan vermәyin.



**Oxatan** - Yaranmış situasiyanı emosional dәyәrlәndirmәyin, hisslәrә qapılmayın. Belә olarsa, ciddi problemlәrlә qarşılaşa bilәrsiniz. Mühüm işlәri görün, dünәn vә ya daha әvvәl başladığınız işlәri başa vurmağa sәy göstәrin.



**Oğlaq** - Bu gün ifrat dәrәcәdә impulsiv olmayın, qәrarları tәlәsik qәbul etmәyin. Hәmin qәrarların perspektivdә pis nәticәlәri ola bilәr. İşdә hәmkarlar vә çalışdığınız bәzi insanlarla fikir ayrılıqları, hәtta, mübahisә mümkün ola bilәr.



**Dolça** - Bu gün bәzi çәtinliklәr vә problemlәr olsa da, müsbәt tәmayüllәr üstünlük tәşkil edәcәk. Bunu hiss edәcәksiniz. İşdәki çәtinliklәr hәll olunmaqla yanaşı, sizә yeni vәzifә tәklifi dә mümkündür.



**Balıqlar** - İntellektual fәaliyyәt üçün әlverişli gündür. Qarşınıza qoyulan çox çәtin vә mürәkkәb tapşırıqların öhdәsindәn gәlәcәksiniz. Gәrәkli informasiyanı vaxtında xatırlayın, bu mәlumatı tәtbiq etmәyә çalışın.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Bu ölkәdә salamlaşanda bir-birlәrinin әlinә tüpürürlәr

"Milli.Az" bildirir ki, haberler.com saytı qeyri-adi adәt-әnәnәlәri olan qәbilәlәr haqqında yazı hazırlayıb. Yazıda Keniyadakı Masai qәbilәsi ilә bağlı qeyd olunanlar diqqәt çәkib. Belә ki, mәlumatda bildirilib ki, hәmin qәbilә üzvlәri salamlaşarkәn әllәrinә tüpürürlәr. Onlar bunun hәmin insana müsbәt tәsir edәcәyinә inanırlar.

*Hazırladı: Ramil QULİYEV*

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*
Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**
Qәzet hәftәdә 5 dәfә çıxır.
(Bazar vә bazar ertәsindәn başqa).
«BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.